# İMANI TEZ ANLAMAQ
# -3-

**Biz sizə açıq-aydın ayələr, sizdən əvvəl gəlib-gedənlər barəsində məsəllər və müttəqilər üçün öyüd-nəsihət nazil etdik. (Nur surəsi, 34)**

**HARUN YƏHYA**

# MÜNDƏRİCAT


1. Allaha yaxınlaşmaq nə deməkdir?

2. Bir möminin Allaha yaxınlıqda hədəfi nə olmalıdır?

3. Qurana görə peyğəmbərlərə qarşı hörmət necə olmalıdır?

4. Vəhy nə deməkdir?

5. Bir başqasının dua etməsi insana fayda gətirərmi?

6. Qorxu ilə ümid arasında dua etmək nə deməkdir?

7. Quranda peyğəmbərlərin və möminlərin hansı mövzularda dua etdiklərindən bəhs edilir?

8. Dünyada ikən, insanlar üçün "cənnətlik ya da cəhənnəmlik" demək doğrudurmu?

9. Quranda keçən "oda çağıran öndər" ifadəsinin mənası nədir?

10. Quranda axirətdə hesab verərkən insanların dərilərinin eşitmə və görmə orqanlarının danışacağı bildirilmişdirmi?

11. Qeyb nə deməkdir?

12. Hər hansı bir insanın gələcəklə əlaqədar məlumat verə bilməsi mümkündürmü?

13. Gələcəklə əlaqədar qəti fikirlər söyləmək doğru olarmı?

14. Qurana görə iltifat və tərif necə olmalıdır?

15. Ölüm anındakı tövbə Allah qatında qəbul edilərmi?

16. İnsanın bir başqası adına bağışlanma diləməsi mümkündürmü?

17. Qiyamət saatının vaxtını bilmək mümkündürmü?

18. Quranda bəhs edilən "qəlbində xəstəlik olan kəslər" kimlərdir?

19. İbadətlərdə davamlılıq necə olmalıdır?

20. Qurana görə ana və ataya qarşı göstərilməli olan rəftar necə olmalıdır?

21. İslamda din əxlaqını izah etmə məsuliyyəti kimlərə verilmişdir?

22. Zalım anlayışı Quranda necə tərif edilir?

23. "Mən müsəlmanam" demək iman etmək üçün kifayətdirmi?

24. İnkar edənlərin də Allahın idarəsində olması Quranda necə açıqlanır?

25. Allaha duyulan sevgi necə olmalıdır?

26. Quranda keçən "küfrə qarşı şərəfli olmaq" anlayışı nə deməkdir?

27. Din əxlaqını izah edən bir kimsə, qarşısındakı adamın iman edib-etməməsindən məsul olarmı?

28. Müsəlmanlarla görüşmədən din əxlaqı yaşana bilərmi?

29. İnsanların din əxlaqını yaşamadan xoşbəxt olmaları mümkündürmü?

30. Hər insan din əxlaqını yaşamaqla məsuldurmu?

31. Hz. İsa, hz. Musa və digər peyğəmbərlər üçün "müsəlman" ifadəsini istifadə etmək doğrudurmu?

32. İnsanların Allahdan razı olmaları nə deməkdir?

33. Batil inanclar qəbul etmək doğru olarmı?

34. Quran, qiyamətə qədər yaşayacaq olan bütün insan topluluqlarına göndərilmişdirmi?

35. Xəstəlik, əlillik, kasıblıq və ya hər hansı bir fiziki əksiklik qarşısında şikayət etmək doğru olarmı?

36. Haqq-hesab günündə peyğəmbərləri görə bilərikmi?

37. Möminlər cənnətdə kimlərlə birlikdə olacaq?

38. İnsanın etmədiyi şeylərlə öyünməsinin Qurandakı yeri nədir?

39. Müsəlmanların incəsənətə baxışı necə olmalıdır?

40. Hikmət nə deməkdir?

41. Quranda hz. Davuda verilən "ifadə səlistliyi" nə mənaya gəlir?

42. Allah inananlara imanlarından ötrü dünyada bir qarşılıq verərmi?

43. Allah inkar edənlərə dünyada bir qarşılıq verərmi?

44. İnsanlar arasında daha təqvalı olanları ayırd etmək mümkündürmü? Hansı rəftarlar təqva əlamətidir?

45. Bir başqasının günahını boynuna götürmək və axirətdə onun yerinə cəza çəkmək mümkün ola bilərmi?

46. İslamı və Quranı başqalarına izah etmək nə şəkildə olar?

47. Gözəl əxlaqın bir sərhədi vardırmı? İnsan müəyyən bir əxlaqa çatdıqdan sonra "bu qədər yetər" deyə bilərmi?

48. Müsəlman vaxtını necə dəyərləndirməlidir?

49. Din əxlaqını izah etməyin qarşılığında insanlardan bir qarşılıq gözləmək olarmı?

50. Quranda yetimlərin baxımı necə təsvir edilir?

51. İnsanın tam məlumat sahibi olmadığı mövzularda mübahisə etməsi doğrudurmu?

52. Başqalarını həmişə xəbərdar edən, ancaq söylədikləri şeyləri özləri tətbiq etməyən kəslər Quranda necə tərif edilir?

53. İnsanlar ümumiyyətlə, yalnız çətinlik anında dua edərlər. Bu rəftarın yanlışlığı Quranda necə tərif edilir?

54. Allah bütün insan birliklərinə din əxlaqını izah edən bir xəbərçi/elçi göndərmişdirmi?

55. "Zənn etmək" Quranda necə tərif edilir?

56. İnsanların ibadətlərini yaşlılığa təxirə salması doğru olarmı?

57. "Mənim ürəyim təmizdir" deyərək, ibadətlərin təxirə salınması doğru olarmı?

58. Qurana görə daha əvvəl göndərilən müqəddəs kitabların vəziyyəti nədir?

59. Quranda bəhsi keçən "Kitab əhli" kimlərdir?

60. İnsanın dünyada etdiyi səhvlərinin qarşılığını dərhal almamasının hikməti nədir?

61. İnsan ağlından keçirdiyi şeylərdən də məsuldurmu?

62. Ölən bir kimsənin ardından kədərlənmək doğru olarmı?

63. İnsanın, ətrafındakı bir kimsənin iman etməməsindən ötrü hüznə qapılması doğrudurmu?

64. İnsanlara axirətdə kimlər şahidlik edəcək?

65. Qürurlu və təkəbbürlü bir insana qarşı necə rəftar göstərmək lazımdır?

66. Səbirsizlik, ümidsizlik kimi anlayışların möminlərin həyatlarında yeri vardırmı?

67. "Dünya həyatına razı olmaq" nə deməkdir?

68. İnsanın yaxın bir qohumunun dini ibadətlərini yerinə yetirməsinin o insana bir faydası olarmı?

69. Din əxlaqını bilən bir insanın bunu bir başqasına da izah etməsi lazımdırmı? Yalnız özünün yaşaması kafi olarmı?

70. Ətrafdan, ya da insanlardan çəkinərək yaxşılığı tövsiyə etməmək və pislikdən çəkindirməmək doğru olarmı?

71. Allahın Əfuv və Qaffar adının təcəllilərini necə görərik?

72. Allahın Qaniy (Zəngin) adının təcəllilərini necə görərik?

73. Allahın Mühəvvin (Asanlaşdıran) adının təcəllilərini necə görərik?

74. Allahın Şafi adının təcəllilərini necə görərik?

75. Allahın Münzir (Aqibətinin nə olacağını deyərək qorxudan) adının təcəllilərini necə görərik?

76. Allahın Quranda sevdiyini bildirdiyi xüsusiyyətlər nələrdir?

77. Allahın Quranda sevmədiyini bildirdiyi xüsusiyyətlər nələrdir?

78. Təkamülçülərin bir canlının doğulan kimi öz növünün xüsusiyyətlərinə aid məlumatlara necə sahib olduğu, sərgilədiyi şüurlu, planlı və ağıllı davranışların

necə ortaya çıxdığı suallarına verdikləri cavablar nələrdir?

79. Təkamülçülər instinkti necə açıqlayarlar?

80. Təbiətdə bir çox nümunəsini gördüyümüz fədakarlıqlara, canlılar arasındakı köməkləşməyə və şəfqət dolu davranışlara təkamülçülər necə şərh gətirirlər?

81. Canlılardakı fədakarlıq və buna bənzər davranışların təkamül nəzəriyyəsi üçün əhəmiyyətli və həll edilə bilməyən bir problem olmalarının əsil səbəbi nədir?

82. Təkamül nəzəriyyəsinin təbii seleksiya mexanizmi nə üçün etibarsızdır?

83. Hər canlı doğulan kimi öz növünə xas davranışlar göstərməyə başlayır. Bu davranışların təsadüflərlə açıqlanması mümkündürmü?

84. Canlılar fədakarlığı yalnız öz balalarına qarşı göstərməzlər. Eyni növün digər fərdlərinin balalarının baxımıyla da eyni şəkildə maraqlanarlar. Bu da təkamülçülər baxımından bir ziddiyyət deyildirmi?

85. Təbiətdəki bir çox canlı özündən ümid edilməyəcək işləri böyük müvəffəqiyyətlə həyata keçirir. Bəzən bədənlərində bir kimya fabriki varmış kimi hərəkət edərlər, bəzən də ən

çətin şərtlərə dayanacaq mexanizmlərindən istifadə edərlər. Təkamülçülər canlılardakı bu kimi dizayn nümunələrinə necə şərh gətirirlər?

86. Təbiətdəki canlılar öz-özlərini müalicə etməyi necə öyrənmiş ola bilərlər. Bu təkamülçülərin iddia etdikləri kimi təsadüfən inkişaf etmiş bir xüsusiyyət ola bilərmi?

87. Təkamülçülər ibtidai bir bakteriya hüceyrəsinin şərtlərin zərurəti nəticəsində fotosintez etməyə başladığını və təkamül keçirərək bitkiləri meydana gətirdiyini iddia edərlər. Bakteriyaların belə kompleks bir əməliyyatı öz-özlərinə başlatmaları mümkündürmü?

88. Təkamülçülər su yosunlarının quru bitkilərinə çevrildiyini iddia edərlər. Bu iddia nə dərəcədə doğrudur?

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini

səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# İMANI TEZ ANLAMAQ

# -3-

## 1. Allaha yaxınlaşmaq nə deməkdir?

Bir insanın Allaha yaxınlaşması, Allaha olan sevgisinin, bağlılığının, Allah qorxusunun, imanının və inancının artması deməkdir. Heç bir insan üçün Allaha yaxınlaşmağın bir sərhədi yoxdur. İnsanlar axirətdə Allaha olan yaxınlıqları ölçüsündə cavab alacaqlar və yenə bu ölçüdə sonsuz bir cənnət həyatına qovuşacaqlar. Bu səbəblə, hər insanın dünyadakı əsil yaşayış məqsədi Allahın bildirdiyi şəkildə bu mövzuda səmimi cəhd edərək olmalıdır. Quranda möminlərin bu mövzuda göstərdikləri səyə belə diqqət çəkilmişdir:

**Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Allah onlar üçün ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur. (Tövbə surəsi, 99)**

Belə bir səy nəticəsində Allaha yaxınlaşan bir insanın Allaha olan sevgisi və bağlılığı daha da şiddətlənər, ürəyində Rəbbimizə qarşı daha böyük bir coşğu hiss edər, Allahın razı olmayacağı bir rəftar göstərməkdən daha çox qorxar və bu ölçüdə də Allahdan çəkinər. Din əxlaqına qarşı bağlılığı, şövqü və dinə xidmət etmə istəyi qüvvətlənər. Allaha olan yaxınlığın gücü artdıqca bütün bu sayılan xüsusiyyətlər də həmişə artmağa davam edər.

## 2. Bir möminin Allaha yaxınlıqda hədəfi nə olmalıdır?

**Ey iman gətirənlər! Allahdan qorxun, Ona yaxınlaşmaq üçün vasitə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız** (Maidə surəsi, 35) ayəsiylə insanları Özünə yaxınlaşmaq üçün yollar axtarmağa çağırmışdır. Bu səbəblə, bir möminin həyatının ən böyük hədəfi, Allahın bu çağırışı istiqamətində səy sərf edərək və gəlib-keçmiş bütün insanlar arasında Allaha ən yaxın qul olmağa çalışmaqdır. Bu mövzuda möminlərin özlərinə nümunə götürdükləri kəslər isə peyğəmbərlərdir. Peyğəmbərlərin Allaha olan yaxınlıqları, onların Allahdan çox qorxan və Allahı çox sevən, təqva sahibi, gözəl əxlaqlı və səmimi insanlar olmaları səbəbiylədir.

**Biz bunu ona bağışladıq. Həqiqətən, o Bizə yaxın olanlardandır və onun üçün gözəl qayıdış yeri hazırlanmışdır** (Sad surəsi, 25) ayəsiylə hz. Davudun Allaha olan yaxınlığı bütün möminlərə nümunə verilmişdir. Özünə peyğəmbər əxlaqını və səmimiyyətini nümunə alan hər bir şəxs, eyni şəkildə Allahdan qorxub çəkinərək, Quranın hökmlərini dəqiqliklə yerinə yetirərək və həyatını Allahın razılığını qazanmağa həsr edərək peyğəmbərlərin Allaha olan yaxınlıqlarını əldə etməyi ümid edə bilər. Ancaq burada əhəmiyyətli bir nöqtə daha vardır: Bir insanın Allaha yaxınlıq mövzusunda təkmilləşməsi yalnız səmimi bir istəklə bir neçə saniyə içində ola bilər. Çünki Allah insanlara çox yaxındır və qullarının dualarına cavab verəndir. Buna görə bir insanın Allah ilə yaxınlaşması yalnız səmimi və qəti niyyətinə bağlıdır.

## 3. Qurana görə peyğəmbərlərə qarşı hörmət necə olmalıdır?

**İsmayılı, Əlyəsəni, Yunisi və Lutu da. Hamısını aləmlərdən üstün etdik.** (Ənam surəsi, 86) ayəsiylə bildirildiyi kimi, peyğəmbərlər Allahın seçdiyi və bütün insanlar arasında üstün etdiyini bildirdiyi kəslərdir. Allah, peyğəmbərlərinə Öz Qatından xüsusi bir elm vermiş, onları mələklərlə dəstəkləmiş və cənnətiylə müjdələmişdir. Peyğəmbərlər hər dövrdə Allahın dinini təbliğ etməklə vəzifələndirilmiş, insanlara Allahın vəhyini çatdırmış və onları haqq dini yaşamağa dəvət etmişlər. Hər nə çətinliklə qarşılaşırlarsa qarşılaşsınlar bu mövzudakı qərarlılıqlarından heç bir şəkildə güzəştə getməmiş, şövqlə və səbirlə mübarizəyə davam etmişlər. Allahın seçdiyi və göstərdikləri üstün iman və əxlaq anlayışlarıyla diqqət çəkən peyğəmbərlər şübhəsiz ki, bütün möminlərin səmimi hörmət və sevgiylə bağlandığı kəslərdir. Quranda Allaha olan sədaqətindən təriflə bəhs edilən Peyğəmbərimiz (s.ə.v) Allahın ayədə bildirdiyi kimi möminlər üçün "öz nəfslərindən daha yaxın" dır. (Əhzab surəsi, 6)

Bu səbəblə, bütün möminlər peyğəmbərlərə qarşı ürəklərində böyük bir hörmət və sevgi bəsləyərlər. Ürəklərindəki bu hörməti necə ifadə edəcəkləri isə Quranda belə təsvir edilir:

**Biz belə etdik ki, siz Allaha və Onun Elçisinə iman gətirəsiniz, ona kömək edəsiniz, onun hörmətini saxlayasınız və gecə-gündüz Allahı tərifləyəsiniz. (Fəth surəsi, 9)**

Peyğəmbərlərə qarşı göstərilən bu hörmətin gündəlik həyatda necə yaşanacağı Quranın Hucurat surəsində müxtəlif nümunələrlə izah edilir. Möminlərin Peyğəmbərimiz (s.ə.v)-in yaşadığı yerdə "yemək saatını gözləməmələri", "qapıların ardından peyğəmbərə səslənməmələri", "səslərini peyğəmbərin səsindən yüksək çıxarmamaları" və "bir-birlərinə bağırdıqları kimi peyğəmbərə bağırmamaları" ya da söhbət zamanı "elçinin hüzurunda önə keçməməli" kimi mövzulara diqqət etmələrini xatırladılaraq bu hörmətin necə olacağı haqqında məlumat verilmişdir.

Bununla yanaşı, Peyğəmbər (s.ə.v) dövründə yaşayanlar qədər, ondan sonra yaşayan bütün möminlər də eyni hörmət anlayışını ürəklərində daşımağa davam edərlər. Peyğəmbərimiz (s.ə.v)-ə olan dərin hörmətlərini, "**And olsun ki, sizin üçün, Allahı və axirət gününü ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün Allahın Rəsulunda gözəl bir nümunə vardır."** (Əhzab surəsi, 21) ayəsiylə də xatırladıldığı kimi bütün rəftarlarında onu nümunə götürərək və bütün danışıqlarında onu tərif dolu sözlərlə və hörmətlə ucaldaraq ifadə etməyə çalışarlar.

Digər peyğəmbərlər üçün də Allah belə əmr etmişdir:

**Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmayıla, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!" (Bəqərə surəsi, 136)**

Ayədən də aydın olduğu kimi, digər peyğəmbərlərə də bənzər bir hörmət göstərməliyik. Necə ki, Allah bir başqa ayəsində də belə buyurur:

**İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa**

**tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaqdır!" Yalnız İbrahimin öz atasına: "Mən sənin üçün mütləq bağışlanma diləyəcəyəm. Fəqət Allahdan sənə gələn əzabı dəf edə bilmərəm!" – deməsi istisnadır. Onlar dedilər: "Ey Rəbbimiz! Biz yalnız Sənə təvəkkül edir və yalnız Sənə üz tuturuq. Dönüş də yalnız Sənədir. (Mumtəhənə surəsi, 4)**

## 4. Vəhy nə deməkdir?

Vəhy Allahın, insanın qəlbinə dilədiyi bir mövzuda, dilədiyi bir məlumatı ilham etməsidir. Quranda vəhy mövzusunda verilən nümunələrdən, bu vəhyin bəzən mələklər vasitəsiylə, bəzən "bir pərdə arxasından" çatdırıldığı, bəzən də Allahın heç bir vasitəsi olmadan birbaşa insanın ürəyinə verdiyi görülür. Allah Quranda bu mövzunu belə açıqlamışdır:

**Allah insanla ancaq vəhylə və ya pərdə arxasından danışır, yaxud bir elçi göndərir və o da Allahın izni ilə Onun istədiyini vəhy edir. Həqiqətən, O, Ucadır, Müdrikdir. (Şura surəsi, 51)**

Bu mövzuda Quranda bir çox nümunəyə rast gəlmək mümkündür. Məsələn, ayələrdə hz. Musanın bir atəş gördüyü və nə olduğunu anlamaq üçün getdiyi yerdə vəhy aldığı bildirilir:

**Oda yaxınlaşdıqda bir səda gəldi: "Ey Musa! Həqiqətən, Mən sənin Rəbbinəm. Başmaqlarını çıxart. Çünki sən müqəddəs Tuva vadisindəsən! Mən səni seçmişəm. Sənə vəhy olunanı dinlə! Həqiqətən, Mən Allaham. Məndən başqa heç bir məbud yoxdur. Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl! (Taha surəsi, 11-14)**

Bir başqa ayədə isə hz. Məhəmməd (s.ə.v)-ə Quranın Cəbrayıl vasitəsiylə vəhy edildiyindən bəhs edilir:

**Bunu ona çox qüvvətli olan öyrətdi – gözəl görünüşlü Cəbrayıl. O, yüksəlib öz surətində göründü. O, ən uca üfüqdə idi. Sonra Məhəmmədə yaxınlaşıb aşağı endi. O, iki yay uzunluğunda, hətta ondan da yaxın məsafədə idi. Sonra Allah Öz quluna nazil edəcəyini vəhy etdi. (Nəcm surəsi, 5-10)**

Allah bəzən də, ortada görünən heç bir şey olmadan, yalnız bir səsin xitab etməsi şəklində də vəhy edə bilər. Ayələrdə bu mövzunun bir nümunəsi hz. Musa üçün verilmişdir:

**Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı. Musa dedi: "Ey Rəbbim! Özünü mənə göstər, Sənə baxım". O dedi: "Sən məni görə bilməzsən. Lakin bu dağa bax. Əgər o, öz yerində qala bilsə, sən də Məni görəcəksən". Rəbbi dağa göründükdə onu parça-parça etdi. Musa da bayılaraq yerə sərildi. Özünə gəldikdə isə dedi: "Sən pak və müqəddəssən! Sənə tövbə etdim və mən iman gətirənlərin birincisiyəm!" (Əraf surəsi, 143)**

Hz. Məryəmə isə, Allah bir su arxının altından gələn bir səs ilə vəhy etmişdir:

**Məryəmin aşağı tərəfindən (İsa və ya Cəbrayıl) onu səsləyib dedi: "Qəm yemə, Rəbbin sənin ayağının altından bir bulaq axıtdı. Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün. Ye, iç, gözün aydın olsun! Əgər insanlardan kimisə görsən, de: "Mən Mərhəmətli Allaha oruc tutmağı nəzir etmişəm. Odur ki, bu gün heç kimlə danışmayacağam". (Məryəm surəsi, 24-26)**

Hz. Musanın anasının isə qəlbinə vəhy edilmişdi:

**Biz Musanın anasına: "Onu əmizdir. Ondan ötrü qorxduqda isə onu çaya at. Qorxma və kədərlənmə. Çünki Biz onu sənə qaytaracaq və onu elçilərdən edəcəyik" – deyə vəhy etdik."(Qəsas surəsi, 7)**

## 5. Bir başqasının dua etməsi insana fayda gətirərmi?

**Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər".** (Mömin surəsi, 60) ayəsiylə bütün insanları dua etməyə çağırmış və bunun qarşılığında da dualarını qəbul edəcəyini bildirmişdir. Bu səbəblə, bir insanın digər insanlar üçün etdiyi bir dua da Allahın diləməsiylə əlbəttə fayda gətirə bilər. Bir ayədə Allah Peyğəmbərimiz (s.ə.v)-ə digər inananlar üçün dua etməsini bildirmişdir:

**... Onlara dua et. Doğrusu, sənin duan onlar üçün "bir sükunət və dinclikdir." Allah Eşidəndir, Biləndir. (Tövbə surəsi, 103)**

İman edən bir insan, özü qədər bütün digər inananların da Allahın razılığını ala bilməsini və cənnətinə qovuşmasını istəyər. Bu səbəblə də, ən az özü qədər digər mömin qardaşları üçün də dua edər. Ancaq bu duanın qəbul edilməsi mövzusunda təqdir Allaha aiddir. Allah istəsə, istədiyi adamın istəyini dilədiyi şəkildə yerinə yetirər. İstəsə də bir xeyir və hikmət istiqamətində bu duaya fərqli bir şəkildə razılıq verər.

## 6. Qorxu ilə ümid arasında dua etmək nə deməkdir?

Allah insanlara bütün həyatları boyunca Özünə itaət etmələrini, gözəl əxlaq göstərmələrini, xeyirli işlərdə yarışmalarını və Öz razılığını qazanmaq məqsədiylə saleh əməllər etmələrini əmr etmişdir. Ancaq heç kim bu etdikləri nəticəsində qəti olaraq cənnətə girəcəyindən əmin deyil. Bu səbəblə, insan imanı nə qədər güclü, Allaha nə qədər bağlı olursa olsun, hər an ümid və qorxu hissləri arasında yaşayar. Bir tərəfdən cəhənnəm əzabından qorxaraq, qul olaraq etdiyi səhvlərdən ötrü bağışlanma diləyər. Bir tərəfdən də Allaha səmimi olaraq iman etdiyi üçün Allahın səhvlərini bağışlayacağına qəti olaraq ümid edər. Allahın mərhəmətinə və bağışlayıcılığına sığınır, əskikliklərini aradan qaldırması üçün səmimiyyətlə dua

edər. Hesab günü Allahın haqqındakı təqdirini öyrənənə qədər də, həm cəhənnəmə getmə qorxusunu, həm də cənnətə getmə ümidini daima bir yerdə yaşayır. Quranda peyğəmbərlərin də bu şəkildə qorxu və ümid dolu olaraq Allaha dua etdiklərindən bəhs edilir:

**Biz onun duasını qəbul etdik, ona Yəhyanı bəxş etdik və zövcəsini ona uşaq doğmağa qadir etdik. Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə yalvarardılar. Onlar Bizə müti qullar idilər. (Ənbiya surəsi, 90)**

## 7. Quranda peyğəmbərlərin və möminlərin hansı mövzularda dua etdiklərindən bəhs edilir?

**Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər"** (Mömin surəsi, 60) deyərək ehtiyac duyduqları hər mövzuda Özünə sığınıb kömək istəməyə çağırmışdır. Quranda peyğəmbərlərin və möminlərin Allahdan nələr istədikləri mövzusunda verilən nümunələrdən bəziləri isə bu cürdür:

**Bizi doğru yola yönəlt – nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların yoluna yox! (Fatihə surəsi, 1-7)**

**-yaşadıqları şəhəri təhlükəsiz bir yer etməsi (Bəqərə surəsi, 126)**

**-yaşadıqları şəhərin əhalisinin Allaha və axirət gününə inananlarına cürbəcür ruzilərlə təmin etməsi (Bəqərə surəsi, 126)**

**-özlərini Allaha təslim olmuş müsəlmanlar qılması və nəsillərindən Allaha təslim olmuş (müsəlman) bir ümmət verməsi (Bəqərə surəsi, 127-129)**

**-İbadət üsullarını göstərməsi (Bəqərə surəsi, 127-129)**

**-tövbələrini qəbul etməsi (Bəqərə surəsi, 127-129)**

**-içlərindən ayələri oxuyan, kitabı və hikməti öyrədən və onları təmizləyən bir elçi göndərməsi (Bəqərə surəsi, 127-129)**

**-dünyada və axirətdə yaxşılıq verməsi (Bəqərə surəsi, 201-202)**

**-odun əzabından qoruması (Bəqərə surəsi, 201-202)**

**-üzərlərinə səbir yağdırması, addımlarını sabit qılması və kafirlərə qələbə çalmaqda kömək etməsi (Bəqərə surəsi, 250)**

**-unutduqlarından və yanıldıqlarından ötrü məsul tutmaması (Bəqərə surəsi, 286)**

**- Əvvəlki nəsillərə yüklədiyi kimi ağır yük yükləməməsi və güc çatdıra bilməyəcəkləri şeyləri yükləməməsi (Bəqərə surəsi, 286)**

**-əfv etməsi, bağışlaması, rəhm etməsi (Bəqərə surəsi, 286)**

**-hidayət yoluna yönəltdikdən sonra qəlbləri azdırmaması və bizə Öz tərəfindən mərhəmət bəxş etməsi (Ali İmran surəsi, 8-9)**

**-günahları bağışlaması, pisliklərini örtməsi (Ali İmran surəsi, 193)**

**-elçilərə vəd etdiklərini özlərinə də verməsi (Ai İmran surəsi, 194)**

**- Qiyamət günündə özlərini xor və alçaq qılmaması (Ali İmran surəsi, 194)**

**-aralarında haqq ilə hökm verməsi (Əraf surəsi, 89)**

**-canlarının müsəlman olaraq alınması (Əraf surəsi, 126)**

**-kafirlər birliyindən onları rəhmətiylə qurtarması (Yunis surəsi, 86)**

**-qatından köməkçi bir qüvvə verməsi (İsra surəsi, 80)**

**-namazlarında davamlı olması və dualarını qəbul etməsi (İbrahim surəsi, 40-41)**

**-hesap günündə, özünü, anasını və atasını bağışlaması (İbrahim surəsi, 40-41)**

**-köksünü açması, işlərini asanlaşdırması (Taha surəsi, 25-26)**

**-şeytanın vəsvəsələrindən qoruması (Muminun surəsi, 97-98)**

**-özlərini təqva sahiblərinə rəhbərlər qılması (Furqan surəsi, 74)**

**-qatından hökm və hikmət bağışlaması (Şuəra surəsi, 83)**

**-nemətlərlə təchiz edilmiş cənnətlərinin varislərindən etməsi və insanların diriləcəkləri gündə özlərini alçaltmaması (Şuəra surəsi, 85-87)**

**-özünə, ana və atasına verdiyi nemətlərə şükür etməyi və razı olacağı saleh bir əməldə olmağı ilham etməsi və rəhmətiylə özünü saleh qullarının arasına qatması (Nəml surəsi, 19)**

**-Qatından özləri üçün xeyir endirməsi (Qəsas surəsi, 24)**

**-özlərini və özlərindən əvvəl yaşamış olan möminləri bağışlaması və iman edənlərə qarşı bir kin buraxmaması (Həşr surəsi, 10)**

**-Qatından mülk verməsi (Sad surəsi, 35)**

**-Qatından ifadə səlistliyi verməsi (Taha surəsi, 27-28)**

## 8. Dünyada ikən, insanlar üçün "cənnətlik, ya da cəhənnəmlik" demək doğrudurmu?

İnsanların axirətdə necə bir qarşılıq görəcəkləri mövzusunda hər hansı bir şərh etmək səhv olar. Çünki hansı insanın cənnətə, hansı insanın cəhənnəmə gedəcəyini yalnız Allah bilir; insanlar isə bunu ancaq Allahın diləməsi xaricində axirətdə öyrənə bilərlər. Bu, eyni zamanda insanın özü üçün də keçərlidir. İman edənlər özləri üçün cənnəti ümid edirlər; ancaq heç bir zaman cənnətə gedəcəklərinə, ya da cəhənnəmə getməyəcəklərinə əmin ola bilməzlər. Quranda hz. Davudun, canını müsəlman olaraq alması üçün Allaha etdiyi dua bu mövzuya gözəl bir nümunədir:

**... Göylərin və yerin yaradıcısı, dünyada və axirətdə mənim Himayədarımsan. Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur. (Yusif surəsi, 101)**

## 9. Quranda keçən "oda çağıran öndər" ifadəsinin mənası nədir?

İman edənlərin olduğu kimi, inkar edənlərin də liderləri vardır. Mömin birliyinin liderləri, onları din əxlaqını yaşamağa, gözəl rəftarlara və xeyirli işlər etməyə çağırırlar. Onlara Allahın varlığını izah edər, dinin hökmlərini və gözəl əxlaqın necə yaşanmalı olduğunu anladar, doğru, ya da səhv olduqları istiqamətləri göstərərək özlərini təkmilləşdirmələrini təmin edərlər.

Eyni şəkildə küfrün də liderləri vardır. Ancaq lider deyincə, ağıla yalnız bir birliyin başında olan insanlar gəlməməlidir. Allahı inkar edən kimsələr düşüncələri, davranışları və yaşadıqları həyat şəkli ilə yanındakı insanları atəşə, yəni cəhənnəmə çağırır və beləcə, inkarın liderliyini etmiş olurlar. İnsanları Allaha iman etməyə deyil, inkar etməyə yönəldirlər. Qurana və vicdanlarına deyil, şeytana və özlərinə tabe olmağa təşviq edirlər. Dünya həyatında inkarın liderliyini edən bu öndərlər, beləliklə özlərinə uyanları atəşə və Allahın əzabına sövq etmiş olurlar:

**... Zalımların aqibəti necə bir bax. Biz onları oda çağıran rəhbərlər etdik; qiyamət günü onlara kömək edilməyəcəkdir. (Qəsas surəsi, 40- 41)**

## 10. Quranda axirətdə hesab verərkən insanların dərilərinin, eşitmə və görmə orqanlarının danışacağı bildirilmişdirmi?

Quranda, hesab günündə inkar edənlərin eşitmə, görmə orqanlarının və dərilərinin öz əleyhinə şahidlik edəcəyi xəbər verilir. Dünya həyatında ikən bəlkə də gizlədiklərini, ya da kimsənin bilmədiyini sandıqları bütün əməlləri, eşitmə, görmə orqanlarının və dərilərinin dilə gəlməsiylə ortaya çıxacaq. Şübhəsiz, onların dünyada ikən etdikləri gizli, ya da açıq bütün rəftarlara Allah şahiddir, ancaq o gün Allah bütün bu həqiqətləri onlara şəxsən təsdiq etdirərək, öz etdikləri cinayətlərə özlərini şahid tutacaq. Bu, Allah üçün son dərəcə asandır. Çünki dünyada ikən insanın dilinə nitq verən Allah, o gün də insanın dərisinə, gözlərinə və qulaqlarına nitq verəcək. Quranda bu hadisə belə bildirilmişdir:

**Allaha yağı kəsilənlər Cəhənnəmə sürüklənib toplanılacaqları günə qədər bir yerdə saxlanacaqlar. Nəhayət, onlar oraya gəldikləri zaman qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şahidlik edəcəkdir. Onlar öz dərilərinə: “Nə üçün əleyhimizə şahidlik edirsiniz?” – deyəcəklər. Dəriləri deyəcək: “Hər şeyi danışdıran Allah bizi danışdırdı. Sizi ilk dəfə O yaratmışdır və siz axırda Ona qaytarılacaqsınız”. Siz qulaqlarınızın, gözlərinizin və dərilərinizin əleyhinizə şahid olmasından çəkinib gizlənmirdiniz. Əksinə, elə zənn edirsiniz ki, Allah sizin etdiyiniz əməllərin çoxunu bilmir. (Fussilət surəsi, 19-22)**

## 11. Qeyb nə deməkdir?

Məlumatını əldə edə bilmədiyimiz, görmədiyimiz, duymadığımız hər şey qeyb məlumatıdır. İnsanlar bu məlumatın ancaq Allahın özlərinə bildirdiyi qədərini bilərlər. Qeyb məlumatının tək sahibi isə Allahdır. Allah zamandan və məkandan münəzzəhdir. Bu səbəblə də, keçmişin, indinin və gələcəyin məlumatına sahib olan tək gücdür. Allah "**Sən ucadan danışsan da, danışmasan da, fərqi yoxdur. Çünki Allah sirri də, bundan daha gizli olanı da bilir.**

(Taha surəsi, 7) ayəsiylə də bildirdiyi kimi, insanların əsla çata bilməyəcəyi ən gizli olan şeyləri də biləndir. İnsanların ürəklərindən keçəni, şüur altında saxladıqlarını, heç kimə söyləmədikləri ən gizli düşüncələrini də biləndir. Quranda qeybə dair bu məlumatın yalnız Allaha aid olduğundan belə bəhs edilir:

**Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Ənam surəsi, 59)**

## 12. Hər hansı bir insanın gələcəklə əlaqədar məlumat verə bilməsi mümkündürmü?

Yaşadığımız andan bir saniyə, ya da bir saat sonrası da daxil olmaq üzrə gələcəyə dair məlumatlarını ancaq qeyb məlumatının tək sahibi olan Allah bilə bilər. Bu səbəblə, insanların gələcəyə dair hər hansı bir xəbər verə bilmə imkanı yoxdur. Ancaq Allah Quranda istəsə elçilərindən dilədiklərinə gələcək haqqında məlumat verə biləcəyini bildirmişdir:

**O, qeybi Biləndir və Öz qeybini heç kəsə açmaz; razı qaldığı elçidən başqa. Həqiqətən, Allah onların önündə və arxasında gözətçilər qoyur. (Cin surəsi, 26-27)**

## 13. Gələcəklə əlaqədar qəti danışıqlar etmək doğru olarmı?

Gələcəkdə reallaşacağı umulan bir hadisə haqqında heç bir zaman üçün qəti bir ifadə istifadə etmək doğru olmaz, çünki gələcəkdə nə olacağını yalnız Allah bilir. İnsanın başına bir həftə, bir dəqiqə hətta bir saniyə sonra nə gələcəyi tamamilə Allahın təqdiri altındadır. İnsan bir gün sonrası üçün belə qəti bir plan qurmaq imkanına sahib deyil. Çünki Allah bir gün içində bir insanın həyatına tam fərqli bir istiqamət verə bilər. Bir gün əvvəl evində sakit bir gün keçirən və sabahısı gün nələr edəcəyini planlaşdıran bir insan, bir gün sonra həyatını itirmiş ola bilər, çox böyük bir qəza keçirə bilər, ölümcül bir xəstəliyə tutula bilər, yaşadığı şəhər bir zəlzələ nəticəsində yerlə bir ola bilər, ya da bunlar kimi heç gözlənilməz bir çox hadisərlə qarşılaşa bilər. İnsan Allahın özü üçün təyin etdiyi qədəri heç bir zaman əvvəldən bilmək imkanına sahib deyil. Bu səbəblə, heç kimin bir saniyə sonrası üçün qəti danışıqlar etdiyi bir planı reallaşdıra biləcəyinə dair zəmanəti yoxdur. Reallaşacaq bütün hadisələrin təqdiri Allaha aiddir. Bu səbəblə, Allah Quranda heç bir şey üçün qəti danışmamaq, ancaq "Allah istəsə", ya da "İnşaAllah" deyərək danışmaq lazım olduğunu bildirmişdir:

**Heç bir şey barəsində: "Mən onu sabah edəcəyəm!" – demə! Ancaq: "Əgər Allah istəsə!" ("inşaAllah" – de!) Unutduğun zaman Rəbbini yada salıb: "Ola bilsin ki, Rəbbim məni haqqa bundan daha yaxın olan bir yola yönəltsin" – de. (Kəhf surəsi, 23-24)**

## 14. Qurana görə iltifat və tərif necə olmalıdır?

Bir insana gözəlliyindən, gözəl əxlaqından, ya da nümunəvi rəftarlarından ötrü iltifat edilər. Gördüyümüz bütün bu gözəl xüsusiyyətlərin tək və əsil sahibi isə Allahdır. Bu səbəblə də, bütün iltifatlarımızı hər şeyi ən gözəl şəkildə, qüsursuz şəkildə var edən Allaha yönəldərlər. Əgər iltifat edilən xüsusiyyət insani bir gözəllik isə bu gözəlliyi o adama lütf olaraq verən Allahdır. Ağıl, zəka və ya hər hansı bir xüsusiyyət də yenə Allahın o adama vermiş olduğu bir nemətdir. Bu səbəbdən, bütün təriflər ancaq Allaha tərif niyyəti ilə edilərsə doğru olar. Tərifin əsil sahibinin Allah olduğu Quranda belə bildirilmişdir:

**De: "Özünə heç bir övlad götürməyən, mülkündə heç bir şəriki olmayan, aciz qalmamaqdan ötrü Özünə kömək edəcək heç bir dosta möhtac olmayan Allaha həmd olsun!" Onu tərifləyərək uca tut. (İsra surəsi, 111)**

Bu səbəblə, bir gözəlliyi tərifləyərkən, bunu yaradanın Allah olduğunu və görünən gözəlliyin də yenə Allaha aid olduğunu və Allahın istədiyi zaman bu neməti geri ala biləcəyini unutmamaq lazımdır.

## 15. Ölüm anındakı tövbə Allah qatında qəbul edilərmi?

Allah ayələrində insanların tövbəsini qəbul edəcəyini, ancaq ölüm anında edilən tövbənin qəbul edilməyəcəyini bildirir. Ancaq insan etdiyi bütün səhvlər üçün ömrünün sonuna qədər tövbə etmə imkanına malikdir. Allah tövbə ediləcək mövzulara bir sərhəd də qoymamışdır. Bir insan oluqca ən pis günahı işləmiş ola bilər, ya da o ana qədər dinsiz yaşamış ola bilər. Hər nə olursa olsun, əgər səmimi olaraq peşman olub, Allahdan bağışlanma diləyər və iman edərsə, o zaman Allah istəsə bu insanın tövbəsinin qəbul edə biləcəyini bildirmişdir. Ancaq iman etmədən yaşadığı uzun bir ömür üçün tövbə etməyə və özünü düzəltməyə ehtiyac duymayıb, son anda ölüm qorxusuyla peşmanlığını dilə gətirən bir insanın vəziyyəti fərqlidir. Bu vəziyyətdə tövbə etdiyini söyləyən kəslər üçün Quranda bildirilən hökm belədir:

**Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!" – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq. (Nisa surəsi, 18)**

## 16. İnsanın bir başqası adına bağışlanma diləməsi mümkündürmü?

İnsanın hər zaman və hər cür səhv qarşısında digər möminlər üçün bağışlanma diləməsi mümkündür. Quranda möminlərin, Allahın, bütün inananların günahlarını bağışlaması, onları əfv etməsi və rəhm etməsi üçün dua etdiklərindən bəhs edilir. Ancaq Allahın razı olduğu insanların cəhənnəm əzabından xilas edilib, cənnəti qazana biləcəkləri üçün, Allahın özləri kimi digər möminlərin səhvlərini də əfv edib bağışlamasını istəyərlər. Quranda Allahın bu əmri belə ifadə edilir:

**Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə. Allah gəzib-dolaşdığınız yeri də, gecələyəcəyiniz məskəni də bilir. (Məhəmməd surəsi, 19)**

Möminlər həyatlarının sonuna qədər inananlar üçün Allahdan bağışlanma diləyərlər, ancaq bu istəklərinin qəbul edilib-edilməməsi tamamilə Allahın təqdiri altındadır. Quranda möminlərin bir-birləri üçün bağışlanma dilədiklərinə bir ayədə belə nümunə verilmişdir:

**Səhabələrdən sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!" (Həşr surəsi, 10)**

## 17. Qiyamət saatının vaxtını bilmək mümkündürmü?

Qiyamət saatının vaxtını yalnız Allah bilir. İnsanlardan heç kim Allahın diləməsi xaricində qiyamətin nə zaman qopacağını bilə bilməz. Bu mövzuda tək bilinən isə qiyamət saatının yaxınlaşaraq gəldiyidir. Quranda bu mövzu belə xəbər verilmişdir:

**İnsanlar, sənə qiyamət-saatını soruşarlar; də ki: "Onun məlumatı yalnız Allahın yanındadır." Nə bilirsən; bəlkə qiyamət saatı çox yaxındır. (Əhzab surəsi, 63)**

Allahın ayədə bildirdiyi kimi, qiyamətin saatı Allahın diləməsi xaricində kimsə tərəfindən bilinməz, ancaq Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə və Quranda mövcud olan işarələrə baxılıb əsr kimi qiyamətin hansı dövrdə ola biləcəyinə dair təxmin oluna bilər. "İman edən heç kimin qalmadığı, inkar edənlərin hakim olduğu bir dövrdə qiyamət qopa bilər" deyilə bilər. Necə ki, böyük Əhli-Sünnə alimi Bərzənci həzrətləri və Suyuti həzrətləri, Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə əsaslanaraq ümmətin ömrünün hicri 1500-ü keçməyəcəyini, yəni 1600-ə çatmayacağını söyləyirlər. Bədiüzzaman Səid Nursi Həzrətləri də, yenə hədislərdəki məlumatlara görə, müsəlmanların hicri 1506-cı illərə qədər Allahın haqq üzərində qalibanə olaraq davam edəcəklərini, hicri 1545 (miladi 2120) tarixində isə qiyamətin qopmasının mümkün olacağını ifadə edir. (Doğrusunu Allah bilir.) (Mövzuyla əlaqədar ətraflı məlumat üçün baxın. www.hazretimehdi.com)

## 18. Quranda bəhs edilən "qəlbində xəstəlik olan kəslər" kimlərdir?

Quranda keçən bu ifadə Allaha, dinə və möminlərə qarşı səmimiyyətində əskiklik olan, imanı zəif olan insanlar üçün istifadə edilir. Bəhs edilən bu xəstəlik, fiziki mənada deyil, mənəvi mənada ürək xəstəliyi, bir başqa ifadəylə iman zəifliyidir.

Ürəklərində xəstəlik olan insanlar ümumiyyətlə, özlərini bəzi rəftar pozuqluqları ilə müəyyən edərlər. Quranda bu kəslərin, Allahı az anmaları, Quran əxlaqını yaşamamaları, dinə xidmət mövzusunda şövqsüz və sərbəst olmaları, ibadətlərdə istəksiz və tənbəl olmaları, möminlərə qarşı sevgisiz və soyuq davranmaları, qorxaq olmaları, bir çətinliklə qarşılaşdıqlarında din əxlaqından güzəştə getmələri kimi əlamətlərlə tanındıqlarından bəhs edilmişdir. Allah bir ayəsində bu əlamətlərin dilədiyi qulları tərəfindən aydın ola biləcəyini bildirmişdir:

**Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq? Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir. (Məhəmməd surəsi, 29-30)**

## 19. İbadətlərdə davamlılıq necə olmalıdır?

Allah **"Göylərin, yerin və onların arasında olan hər şeyin Rəbbidir; bu halda Ona ibadət et və Ona ibadətdə qərarlı ol. Heç Ona oxşarını tanıyırsanmı??"** (Məryəm surəsi, 65) ayəsiylə insanlara etdikləri ibadətlərdə qərarlılıq göstərmələrini əmr etmişdir. Quranda Allahın razılığını qazanmaq üçün edilən hər cür saleh əməlin Allah qatında cavab alacağı ifadə edilmişdir. Ancaq Allah bu mövzuda qərarlı davranmaq lazım olduğunu bildirərək, əsil məqbul olanın ibadətlərdə davamlılıq göstərmək olduğuna diqqət çəkmişdir:

**Mal və uşaq, dünya bər-bəzəyidir; Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab baxımından daha xeyirlidir, ümid etmək baxımından da daha xeyirlidir. (Kəhf surəsi, 46)**

## 20. Qurana görə ana və ataya qarşı göstərilməli olan rəftar necə olmalıdır?

Allah Quranda ana-ataya qarşı gözəlliklə davranılmasını əmr etmişdir. Ana-ataya qarşı gözəl söz söyləmək, hörmət və sevgi göstərmək, mərhəmətli davranmaq Quran əxlaqının bir gərəyidir. Allah bu mövzuda ölçü olaraq ana-ataya "uf" belə deyilməməli olduğunu xatırlatmışdır. Hətta ana və ata, uşaqlarının inancını paylaşmayıb, iman etməyi qəbul etməsələr belə, möminlər onlara qarşı nəzakətli rəftarlarını dəyişdirməzlər.

Din əxlaqına müxalif olan tövsiyələrində onlara uymaları isə mümkün deyildir:

**Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq. Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etsələr, onlara güzəştə getmə. Dönüşünüz Mənə olacaq, Mən də bütün etdikləriniz barədə sizə xəbər verəcəyəm (Ənkəbut surəsi, 8)**

## 21. İslamda din əxlaqını izah etmə məsuliyyəti kimlərə verilmişdir?

İnsanlara yaxşı olanı əmr etmək və onları pis rəftarlardan çəkindirmək hər insanın yerinə yetirməli olduğu bir məsuliyyətdir. Doğrunu bilən hər kəs, digər insanlara bildiyi bu doğrunu izah etməkdə borcludur. Bu səbəblə, din əxlaqını izah etmək və insanları Allaha imana dəvət etmək yalnız elçilərin deyil, iman edən hər insanın yerinə yetirməli olduğu ibadətlərdən biridir. Allah insanları din əxlaqına dəvət edərək, onlara doğru yolu göstərmənin, axirət həyatındakı sonsuz qurtuluşun yolu olduğunu bildirmişdir:

**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. (Ali İmran surəsi, 104)**

## 22. Zalım anlayışı Quranda necə təsvir edilir?

Quranda özünə Allahın ayələri xatırladıldığı halda, Allaha ibadət etməkdən üz çevirən kəslər "zalım" olaraq adlandırılmışdır:

**Allaha qarşı yalan uyduran və həqiqət ona bəyan edildikdə onu yalan sayan kimsədən daha zalım kim ola bilər? Məgər Cəhənnəmdə kafirlər üçün yer yoxdur? (Zumər surəsi, 32)**

Bu kəslərin zalımlıqlarının ən əhəmiyyətli göstəricilərindən biri, özlərinə verdiyi saysız nemətə qarşı Allaha nankorluq etmiş olmalarıdır. Allahın böyüklüyü qarşısında nə qədər aciz olduqlarını düşünməmələri də yenə onların zalımlıqlarındandır. Sahib olduqları bu xarakter ilə özlərini cəhənnəmə apardığı kimi, yanındakı insanları da eyni pis əxlaqı yaşamağa çağırırlar. Onları din əxlaqını yaşamağa mane olaraq, dünyada və axirətdə böyük bir əzabın içərisinə girmələrinə səbəb olurlar. Bu səbəblədir ki, Allah "**Zalımlara meyil etməyin, yoxsa sizə atəş toxunar. Sizin Allahdan başqa dostlarınız yoxdur**, **Sonra sizə kömək də olunmaz.**." (Hud surəsi, 113) ayəsiylə insanları belə kəslərə uymamaq mövzusunda xəbərdar etmişdir.

## 23. "Mən müsəlmanam" demək iman etmək üçün kifayətdirmi?

İnsanın yalnız diliylə müsəlman olduğunu söyləməsi tək başına kafi deyil. Çünki iman etmək, dil ilə təsdiq etməklə bərabər Allahın əmr etdiyi din əxlaqını faktiki olaraq yaşamaq və yaşatmaqla mümkün olar. Allah Quranda iman edən insanları bu xüsusiyyətləriylə təsvir etmişdir:

Din əxlaqının yaşanması üçün səy göstərən, lazım olduğunda dinin mənfəəti üçün öz mənfəətlərindən fədakarlıq edən, nəfsinin eqoist ehtiraslarını məğlub edən, başqalarının səhvlərini bağışlaya bilən, hirsini tutub səbirli davrana bilən, ehtiyac içində olsa belə başqaları üçün fədakarlıq edə bilən, malını Allah yolunda xərcləyən, səbir edən, din əxlaqının yayılması üçün gecə-gündüz İslamı təbliğ edən, Allahı çox anan, ibadətlərini diqqətlə yerinə yetirən hər hansı bir haqsızlıqla qarşılaşanda etidalını itirməyən, ədalətli və bunun kimi daha bir çox mövzuda səy göstərən kəslər ...

Diqqət yetirilsə, sayılan bu hərəkətlərin heç biri yalnız sözlə yerinə yetirilə bilən mövzular deyil. Yəni insane, hərəkəli bir səy göstərmədən, "mən cəhd edirəm" deməsinin bir mənası olmaz. Ya da malını xərcləmədən, "mən malımı ehtiyac olduğunda verərəm" deməsi kafi olmaz. Bu səbəblə, "mən müsəlmanam" demək bəlkə iman etməyin ilk mərhələsidir, ancaq həqiqi iman ancaq Allahın hökmlərini tamamilə yaşamaqla mümkün olur. Quranda bu mövzu belə açıqlanmışdır:

**Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!" deyən kəsdən daha gözəl danışan kim ola bilər? (Fussilət surəsi, 33)**

## 24. İnkar edənlərin də Allahın idarəsində olması Quranda necə açıqlanır?

Yer üzündəki canlı-cansız bütün varlıqlar Allahın idarəsi altındadır. Bu vəziyyətin şüurunda olsalar da olmasalar da, inkar edənlər də eyni şəkildə həyatlarının hər anında Allahın nəzarəti altında yaşayırlar. **"... Biz hər şeyi qədər ilə yaratdıq"** (Qəmər surəsi, 49) ayəsiylə də bildirildiyi kimi, bütün varlıqların qədərini təyin edən tək güc Allahdır. Allah inkar edənlər üçün də bir qədər təyin edər və bu kəslər həyatlarını bu qədərə tabe olaraq yaşayarlar. Allah bu həqiqəti bir ayədə belə açıqlamışdır:

**Yoxsa onlar Allahın dinindən başqa bir din axtarırlar? Halbuki göylərdə və yerdə olan hər bir məxluq istər-istəməz Ona təslim olmuş və Ona da qaytarılacaqdır. (Ali İmran surəsi, 83)**

Allahın varlığı bütün kainatı əhatə etmişdir və Onun görmədiyi, səsini eşitmədiyi heç bir canlı yoxdur.

İnkar edənlərin, ağıllarından keçirdikləri bir düşüncəyə, söylədikləri tək bir sözdən etdikləri hər hansı bir rəftara qədər Allah hər an onlara şahiddir. Bu səbəbdən, bütün insanlar hər an hər yerdə Allahın nəzarəti altında yaşayırlar. Dünyanın hər harasına gedərlərsə getsinlər, kimsənin bilmədiyi ən gizli yerlərdə də olsalar, Allah mütləq onların yanındadır və onları sınayır. Quranda bu həqiqətə belə diqqət çəkilir:

**Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Yunis surəsi, 61)**

## 25. Allaha duyulan sevgi necə olmalıdır?

Allaha qarşı duyulan sevgi, bir çox duyğunun birləşməsindən ibarət olan çox köklü bir sevgidir. Bu sevginin içində sonsuz bir güc sahibi olan Yaradıcının qarşısında hiss etdiyimiz təslimiyyət duyğusu, Allahın sonsuz mərhəmətinə duyulan güclü bir güvən duyğusu, Onun sonsuz ağlına qarşı hiss edilən hörmət və yaratdığı gözəlliklərə qarşı duyulan heyranlıq vardır. Allahın hər şeyin sahibi olduğunu bilməyin gətirdiyi bir sədaqət və bağlılıq vardır. Bütün bunların şüurunda olan insan, Rəbbimizə qarşı çox coşğulu bir sevgiylə bağlanar. Bu sevgi həqiqi və saf sevgidir. Quranda möminlərin Rəbbimizə olan sevgiləri belə ifadə edilir:

**İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər (Bəqərə surəsi, 165)**

## 26. Quranda keçən "küfrə qarşı şərəfli olmaq" anlayışı nə deməkdir?

**Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. ... (Maidə surəsi, 54)**

Allah Quranda möminlərə gözəl əxlaqlı olmağı və hər nə olursa olsun, necə bir rəftarla qarşılaşırlarsa qarşılaşsınlar bu xüsusiyyətlərindən güzəştə getməməyi əmr etmişdir. İnkar edənlərin yaşadığı həyat isə, möminlərin sahib olduğu gözəl əxlaq xüsusiyyətlərinə tamamilə zidd rəftarlar ehtiva edir. Möminlər inkar edənlərin bu rəftarlarıyla qarşılaşdıqlarında onların səviyyəsinə enməz və şərəfli bir rəftar ilə cavab verərlər. Onların bu əxlaqı qarşısında Quran əxlaqından əsla güzəştə getməzlər və bu mövzuda güclü qərarlılıq göstərərlər. Səhv sözə gözəl sözlə, qürura təvazökarlıqla, haqsızlığa ədalətlə, mərhəmətsizliyə mərhəmətlə cavab verir, səthi rəftara girməyi əsla özlərinə yaraşdırmazlar.

Quranda möminlərin inkar edənlərə qarşı göstərdikləri bu şərəfli rəftarlara verilən nümunələrdən bəziləri belədir:

**Ki onlar, yalan yerə şahidlik etməz, lağlağı məclisinə rast gələn zaman ləyaqətlə ötüb keçərlər. (Furqan surəsi, 72)**

**O Rəhman olan Allahın qulları, yer üzü üzərində alçaq könüllü olaraq gəzər, cahillər onlara söz atdıqları zaman "Salam" deyərlər. (Furqan surəsi, 63)**

## 27. Din əxlaqını izah edən bir kimsə, qarşısındakı adamın iman edib-etməməsindən məsul olarmı?

Din əxlaqını izah edən bir insan, qarşısındakı insanın iman edib-etməməsindən heç bir şəkildə məsul deyil. Möminlər yalnız Quranı qarşı tərəfə ən gözəl şəkildə izah edərək, insanları Allaha iman etməyə çağırmaqla məsuldurlar. Ancaq din əxlaqının izah edən bu insanın ürəyi tamamilə Allahın idarəsindədir. Təbliğ edilən insan əgər mömin olacaqsa ona İslamı sevdirəcək, ürəyinə imanı yerləşdirəcək olan yalnız Allahdır. Bu səbəblə, Allah Quranda müsəlmanların din əxlaqını izah etməklə məsul olduqlarını, ancaq hidayəti vermənin yalnız Özünə aid olduğunu bildirmişdir:

**Həqiqət budur ki, sən istədiyini doğru yola yönəldə bilməzsən, ancaq Allah, dilədiyini hidayətə çatdırar; O, hidayətə çatacaq olanları daha yaxşı biləndir. (Qəsas surəsi, 56)**

## 28. Müsəlmanlarla görüşmədən din əxlaqı yaşana bilərmi?

Bir mömin, zəruri səbəblərlə tək başına qalması mümkün olmadığı müddətcə digər möminlərlə bir yerdə yaşamalıdır. Çünki müsəlmanın gözəl əxlaqını, fədakarlığını, nəsihətə qarşı boyun əyiciliyini, təvazökarlığını, sevgisini, sədaqətini göstərə bilməsi üçün möminlərlə birlikdə olması lazımdır.

Yoxsa bir mömin din əxlaqından uzaq birinə qarşı sədaqətli ola bilməz. Quran əxlaqının xaricində hərəkət etməz. İman sahibi olmayan birinə qarşı təslimiyyət göstərə bilməz. Allaha inanmayan birliklə Allahı zikr edə bilməz. Bu səbəblə, Quranda təsvir edilən həyatı tam olaraq yaşaya bilməsi üçün möminlərlə bir yerdə olmalıdır.

Həmçinin, imanlı bir insan üçün İslam əxlaqının insanlar arasında yayılması və hər kəs tərəfindən yaşanması çox əhəmiyyətlidir. Çünki bu, Allahın möminlərə yüklədiyi məsuliyyətlərdən biridir. Belə bir iş isə möminlərin bir-birlərinə var gücləriylə dəstək olmalarını tələb edir. Bu səbəblə, Allah iman edənlərə "**möhkəm bir divar kimi səf-səf düzülüb** " hərəkət etmələrini əmr edər. (Saff surəsi, 4)

Həmçinin, bir mömin ancaq Quran əxlaqını yaşayan imanlı insanların yanında rahatlıq tapar. Allahı dost etmiş olan bir insanın dostluğundan zövq alar. Qarşısında gözəl əxlaqlı və Allaha dərindən bağlı bir insan görmək istəyər. Axirətdə sonsuza qədər birlikdə olmaq istədiyi insanlarla, dünyadaykən də birlikdə yaşamağı arzu edər. Allah, dinin bu hökmünü Quranda belə bildirmişdir:

**Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə! (Kəhf surəsi, 28)**

## 29. İnsanların din əxlaqını yaşamadan xoşbəxt olmaları mümkündürmü?

Din əxlaqını yaşamayan heç bir insanın həqiqi mənada xoşbəxt olması mümkün deyil. Çünki bir insanın xoşbəxt ola bilməsi üçün hər şeydən əvvəl vicdanı rahat olması şərtdir. Yəni ürəyinə sıxıntı verəcək, ağlına ilişəcək, peşmanlıq içində yaşamasına səbəb olacaq bir vəziyyət içində olmaması lazımdır. Vicdanın rahat olması isə yalnız bir tək şəkildə mümkündür; bu da din əxlaqının yaşanmasıdır. Çünki vicdan Allahın əmrindədir və insana həmişə Allaha iman etməyi, dinin hökmlərini yerinə yetirməyi və gözəl əxlaqlı olmağı əmr edir. Bu səbəblə, bütün həyatı boyunca vicdanının bu əmrinə qarşı mübarizə aparan dinsiz bir insanın xoşbəxt ola bilməsi mümkün deyil. Allah, insanın qəlb rahatlığını və həqiqi hüzuru yalnız Allaha imanla əldə ediləcəyini bildirmişdir:

**Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır. (Rad surəsi, 28)**

## 30. Hər insan din əxlaqını yaşamaqla məsuldurmu?

Allahın varlığını qavraya biləcək bir şüur açıqlığına çatdığı andan etibarən hər insan, Allahın əmrlərini yerinə yetirməklə məsuldur. Nə kasıb olması, nə şikəst olması, nə xəstə olması, nə çox zəngin və çox məşhur olması, nə də çox yüksək bir mövqe sahibi olması bir insanın din əxlaqını yaşamasına əngəl deyil. Çünki bunların heç biri insanların Allaha qulluq etmələri üçün yaradıldıqları həqiqətini dəyişdirməz. Quranda yalnız fiziki olaraq əlil olan şəxslərin dinin bəzi hökmlərindən məsul olmadığı bildirilmişdir. Bunun xaricində isə hər insan Allaha qulluq etməklə və Onun nazil etdiyi dinin hökmlərini yerinə yetirməklə məsuldur. Allah Quranın insanlara fərz qılındığı ayələrində belə bildirmişdir:

**Doğrusu, bu Quran sənin üçün və sənin xalqın üçün bir şərəfdir. Siz sorğu-suala tutulacaqsınız. (Zuxruf surəsi, 44)**

## 31. Hz. İsa, hz. Musa və digər peyğəmbərlər üçün "müsəlman" ifadəsini istifadə etmək doğrudurmu?

Quranda hz. İsa, hz. Musa da daxil olmaq üzrə, hz. Süleyman, hz. İbrahim, hz. Nuh, hz. Yusif və digər bütün peyğəmbərlər "müsəlman" olaraq xatırlanır. Çünki Allahın dini təkdir və bu din Allah qatında İslamdır. Hz. Adəmdən bu yana insanlara öyrədilən din həmişə eynidir. Hz. İsaya vəhy edilən İncil, hz. Musaya enən Tövrat və hz. Davuda enən Zəburun təhrif edilmədən əvvəlki hallarındakı əsas mahiyyəti də yenə bu dini izah edir. Bu səbəblə, Allahın dinini təbliğ edən bütün peyğəmbərlər tək bir dinə mənsubdurlar. Bu din də haqq din olan İslam dinidir. Quranda bu mövzu insanlara belə açıqlanmışdır:

**İbrahim nə yəhudi, nə də nəsrani idi. O, ancaq hənif bir müsəlman idi və müşriklərdən deyildi. (Ali İmran surəsi, 67)**

Yenə bir başqa ayədə də hz. Musanın yanındakı kəslərdən "müsəlman" olaraq bəhs etdiyi xəbər verilir:

**Musa dedi: “Ey qövmüm! Əgər Allaha iman gətirmişsinizsə və müsəlman olmuşsunuzsa, Ona təvəkkül edin!” (Yunis surəsi, 84)**

Hz. İsanın yanındakı həvarilərin də özlərini müsəlman olaraq adlandırdıqları bir ayədə belə bildirilir:

**Bir zaman Mən həvarilərə: “Mənə və elçimə iman gətirin!” – deyə vəhy etmişdim. Onlar da: “İman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq!” – demişdilər. (Maidə surəsi, 111)**

## 32. İnsanların Allahdan razı olmaları nə deməkdir?

Bir insanın Allahdan razı olması, Allahın özü üçün təyin etdiyi qədərə və özünə verdiklərindən qeyd-şərtsiz, içində heç bir sıxıntı duymadan məmnun olması deməkdir. İnsan qarşılaşdığı hər hansı bir hadisədəki xeyiri və gözəlliyi o an üçün görə bilmir. Ancaq bu xeyiri görsün və ya görməsin, Allahın hər hadisədə şübhəsiz yaxşılıq və gözəllik istədiyini bilir. Hər zaman üçün qarşılaşdığı hər hadisədə Allaha sonsuz bir etibarı vardır. Heç bir zaman öz içində, "bu hadisə mənə yaxşılıq gətirəcək, yoxsa pislik" deyə bir şübhəyə qapılıb tərəddüd etməz, həmişə Allaha güvənərək və xeyirlə qarşılaşacağını bilərək düşünər.

Başına ölümcül bir xəstəlik gələ bilər, qəza keçirib şikəst qala bilər, bütün malını mülkünü itirib kasıb vəziyyətə düşə bilər, insanlar tərəfindən haqsızlığa uğradıla bilər, ya da heç gözləmədiyi tam fərqli bir hadisə ilə qarşılaşa bilər. Nə olursa olsun, bütün bunların Allahın nəzarətində reallaşdığını bildiyi üçün, içi çox rahatdır. Allahın ağlına və mərhəmətinə tam olaraq təslim olmuşdur. Hər nə şərt altında olursa olsun Allaha şükür edər. Məhz bu, Allahdan razı olan bir insanın rəftarıdır. Allah Özündən razı olan qullarını Quranda bu şəkildə xəbər verir:

**Allah dedi: "Bu, doğru danışanlara doğruluqlarının fayda verəcəyi gündür! Onlar üçün ağacları altından çaylar axan və içində əbədi qalacaqları Cənnət bağları hazırlanmışdır". Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu, böyük uğurdur. "(Maidə surəsi, 119)**

**... Onlar, elə kəslərdir ki, Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır. (Mücadilə surəsi, 22)**

## 33. Batil inancları qəbul etmək doğru olarmı?

Batil inanclar xalq arasında ağızdan ağıza yayılan, ancaq heç bir etibarlılığı olmayan inanclardan ibarətdir. İnsanlar müxtəlif varlıqların özlərinə uğursuzluq gətirdikləri kimi əsassız inancları səbəbiylə narahat olurlar. Halbuki, bir maddənin uğur, ya da uğursuzluq gətirməsi deyə bir şey mümkün deyil. Çünki kainatda var olan heç bir hadisə təsadüf əsəri meydana gəlməz. Hər insanın, hər bitkinin, heyvanın və ya əşyanın bir qədəri vardır. Nə qədər yaşayacaqları, necə bir həyat sürəcəkləri, necə bir görünüşə sahib olacaqları kimi hər şey Allah qatında onsuz da bəllidir. Allahın icazəsi olmadan bir ağac budağındakı tək bir yarpağın belə düşməsi mümkün deyil.

Kainatın yaradılışından etibarən reallaşmış və reallaşacaq olan hər hadisəni Allah təqdir etmişdir. Bu qədəri nə bir insanın, nə bir heyvanın, nə də bir əşyanın dəyişdirmə gücü yoxdur. Əgər bir insanın başına gözləmədiyi bir anda bir qəza gəlirsə, bu onun daha yaradılmadan əvvəl təyin olunmuş olan qədərinə görədir. Bir insanın bir müvəffəqiyyət əldə etməsi, sağlamlığına qovuşması, ya da başına hər hansı bir yaxşılıq gəlməsi də onun uğurundan deyil, Allahın lütfündəndir:

**Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur.**

**Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Ənam surəsi, 59)**

## 34. Quran, qiyamətə qədər yaşayacaq olan bütün insan topluluqlarına göndərilmişdir?

Quran qiyamətə qədər yaşayacaq olan bütün insanlar üçün nazil edilmişdir. Bu səbəbdən, Quranın hökmləri, bu müddət içərisində yaşayan hər insan üçün məqbuldur. Bundan 1000 il əvvəl yaşamış olanlar da, bundan sonra yaşayacaq olanlar da eyni kitabdan və eyni hökmlərdən sorğu-sual olunacaqlar. Bir əsrdən başqa bir əsrə keçilməsi, geyim tərzinin, texnologiyanın, ya da şəhərlərin dəyişməsi insanların Allaha qarşı olan məsuliyyətlərini dəyişdirməz. Bir insan böyük bir çölün ortasında da olsa, bir göydələn qatında da otursa, ibadətlərini və əxlaqını Quranda bildirilən şəkildə yerinə yetirməklə məsuldur. Allah Quranın bütün aləmlərə göndərildiyinə və bütün insanların bu kitabdan sorğuya çəkiləcəklərinə ayələrində belə diqqət çəkmişdir:

**Aləmləri xəbərdar olsun deyə quluna Furqanı endirən (Allah) nə qədər ucadır. (Furqan surəsi, 1)**

## 35. Xəstəlik, əlillik, kasıblıq və ya hər hansı bir fiziki qüsur qarşısında şikayət etmək doğru olarmı?

Xəstəlik, əlillik və ya kasıblıq kimi çatışmazlıqlar, insanın dünya həyatının keçiciliyini anlaması və cənnətə həsrət duyub bu istiqamətdə səy sərf etməsi üçün Allahın yaratdığı xüsusi vəziyyətlərdir. Bu səbəblə də, bunlar əslində Allahın qullarına olan lütfündən qaynaqlanır. Dünyada əskiklik kimi görünən bu mövzular, ibrət almasını bilən bir insanın sonsuz həyatı baxımından böyük bir nemətə çevrilər. Allah dünya həyatının çatışmazlıqlarına və çətinliklərinə qarşı Allahın razılığını qazanmaq məqsədiylə təvəkkül edib səbir göstərən qullarına cənnətini vəd etmişdir. Üstəlik, Allah orada bu kəslərin həm mənəvi, həm də fiziki baxımdan bütün bu əskikliklərini aradan qaldıracaq, onları ən gözəl surətdə, həm də sonsuz bir yaradılışla yaradacaq.

Məhz bu səbəblə, insanın belə bir acizlik qarşısında dünya həyatında etməli olduğu şey, bu həqiqəti heç unutmadan sonsuz ağıl sahibi olan Rəbbimizə tamamilə təslim olmasıdır. Çünki Allahın bir insan üçün təyin etdiyi qədərdə adamın heç bilmədiyi xeyirlər və bir çox hikmət vardır. İnsanların kasıblıq, çirkinlik və ya xəstəlik kimi xoşlarına gəlməyən vəziyyətlərə qarşı üsyankar və şikayətçi bir mövqe içində olmaları Quran əxlaqına uyğun deyil. İnsana düşən Allahın özü üçün təyin etdiyi qədərə razı olmaqdır. Unutmamaq lazımdır ki, hər hansı bir vəziyyətdən şikayətçi və məmnuniyyətsiz olan bir insan, əslində Allahın özü üçün istədiyi bir gözəlliyə qarşı məmnuniyyətsiz bir rəftar göstərmiş olar. Bu isə Allaha qarşı böyük bir nankorluqdur. Çünki Allah hər hadisəni insanı sınamaq məqsədiylə yaradır və onun sonsuz qurtuluşuna vəsilə edir. Möminlərin bu mövzuda göstərməli olduğu ideal rəftar isə Quranda belə bildirilmişdir:

**De ki: "Allahın bizim üçün yazdığından başqa bizə heç bir şey üz verməz. O bizim Himayədarımızdır. Və möminlər yalnız Allaha təvəkkül etməlidirlər." (Tövbə surəsi, 51)**

## 36. Hesab günündə peyğəmbərləri görə bilərikmi?

Hesab günündə dünya tarixi boyunca yaşamış olan bütün insanlar bir yerə gələcəkdir. Bu insanlar arasında peyğəmbərlər də vardır. Hər peyğəmbər öz qövmünə şahidlik etmək üçün toplanma yerinə gələcəkdir. Bütün insanlar, Allahın hüzurunda dünya həyatında işlədikləri əməllərə görə hesab verəcəklər. Bu səbəblə, hesab günündə Allahın diləməsiylə hz. Məhəmməd (s.ə.v)-i, hz. İsanı, hz. Adəmi, hz. Yusifi və digər bütün peyğəmbərləri görmək mümkün olacaq. Allah Quranda bu mövzunu belə xəbər vermişdir:

**Yer öz Rəbbinin nuru ilə işıqlanacaq (orta yerə) kitab qoyuldu; peyğəmbərlər və şahidlər gətirildi və aralarında ədalətlə hökm verildi, onlar haqsızlıq edilməz. (Zumər surəsi, 69)**

## 37. Möminlər cənnətdə kimlərlə birlikdə olacaq?

Möminlər cənnətdə, hz. Adəmdən bu yana yaşamış olan bütün inananlarla birlikdə olacaqlar. Bu kəslər arasında bu günə qədər göndərilmiş olan bütün peyğəmbərlər, onlara uyub göstərdikləri yolu izləyən saleh möminlər və şəhidlər də olacaq. Quranda bu müjdə möminlərə bu cür verilmişdir:

**Allaha və Onun Elçisinə itaət edənlər Allahın onlara nemət olaraq bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır. (Nisa surəsi, 69)**

## 38. İnsanın etmədiyi şeylərlə öyünməsinin Qurandakı yeri nədir?

Allah Quranda insanlara hər mövzuda ixlaslı davranmağı və hər işdə yalnız Allahın razılığını güdməyi nəsihət etmişdir. Tərif gözləməsi isə həmin insanın insanlardan təqdir gözləməsinə və onların məmnuniyyətini qazanmağa çalışdığından qaynaqlanar. Bu dünya görüşünə sahib olan insanlar yalnız etdikləri şeylərlə deyil, etmədikləri şeylərlə də öyünməyə cəhd edərlər. Halbuki, insanın etmədiyi bir şeyi etmiş kimi göstərməyə çalışması və bunu irəli sürərək özünə bir pay çıxarması, Allaha qarşı yalan söyləməsi mənasını verər. Çünki Allah insanın etdiklərini də, etmədiklərini də ən yaxşı şəkildə biləndir. Allahın bildiyi bir şeyi insanların bilməməsindən istifadə edərək tərif mövzusu halına gətirməyə çalışmaq Quranda bəyənilməyən bir davranışdır. Bu kəslər o an üçün qazanclı kimi görünsələr də, əslində böyük bir itki içərisinə girərlər. Çünki Allah insanı söylədiyi hər sözdən məsul tutacaq və layiq olduğu qarşılığı axirətdə mütləq verəcək. Quranda bu kəslərin vəziyyəti belə təsvir edilir:

**Törətdikləri əməllərdən fərəhlənən və etmədikləri işlərə görə tərif olunmağı xoşlayan kimsələrin əzabdan qurtulacaqlarını əsla güman etmə. Onlara acılı-ağrılı bir əzab hazırlanmışdır. (Ali İmran surəsi, 188)**

## 39. Müsəlmanların incəsənətə baxışı necə olmalıdır?

Allah yer üzündə müxtəlif gözəlliklər yaratmışdır. İncəsənət, bu gözəlliklərin insanlar tərəfindən örnək alınması və təqlid edilməsiylə ortaya çıxar. Buna görə incəsənət Allahın insanlara təqdim etdiyi böyük bir lütfdür. Allah insanları estetikadan, gözəlliklərdən zövq alacaq fitrətdə yaratmışdır. Xüsusilə möminlər Allahın bu nemətlərini təqdir edə bilən, onlardakı incəlikləri görə bilən, azad düşünərək estetika mövzusunda geniş bir üfüqə sahib olan insanlardır. Bu səbəbdən, incəsənətdən aldıqları zövq dəfələrlə artar.

Möminlər incəsənəti cənnət neməti olaraq görərlər. Quranda cənnətin insanın ruhunda dərin bir təsir buraxacaq gözəllikdə bənzərsiz bir sənətlə döşəndiyindən bəhs edilir.

Ayələrdə cənnətdə qızıl işləməli yastıqlar, ipəkdən hazırlanmış ağır işləməli paltarlar, ləl-cəvahiratlar, yüksək köşklər, yaşıl ipəkdən paltarlar, ləl-cəvahiratların üzərinə diqqətlə işlənmiş olduğu taxtların olduğu bildirilir. Allahın təriflədiyi bütün bu gözəlliklər, möminlər üçün dünyada da böyük bir nemətdir.

Həmçinin, Quranda bəhsi keçən hz. Süleymanın sarayının gözəlliyi də, möminlərin incəsənət və estetika anlayışlarını ortaya qoyması baxımından diqqət çəkicidir. Hz. Süleyman sarayını, hovuzlar, böyük çanaqlar, heykəllərlə bəzəmiş və görənlərin heyran qaldığı mükəmməl bir incəsənət əsəri yaratmışdır.

## 40. Hikmət nə deməkdir?

Hikmət, hər şeyin ən doğrusunu və ən məqsədəuyğun olanını təsbit edə bilmə qabiliyyətidir. Hikmət sahibi olan bir insanın, danışıqları, verdiyi qərarlar, hətta bütün rəftarları mümkün olduqca ən ağıllı və ən məqsədəuyğun quruluşu əks etdirir. Hikmət sahibi bir kimsə, bir mövzunu ən doğru, ən köklü, ən ağıllı şəkildə izah edə bilər, bir hadisəyə, insana ya da rəftara ən doğru diaqnozu qoya bilər. Hadisələr qarşısında ən ağıllı reaksiyanı verər və ən gözəl rəftarı göstərə bilər. Bu səbəbdən də, hikmət sahibi olan insanlar, eyni zamanda da yüksək bir ağıla sahib kəslərdir.

Bir insanın hikmət sahibi ola bilməsi isə insanın ancaq Allaha iman etməsi, Qurana və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə əməl etməsi ilə mümkün olar. Çünki hadisələrin doğrusunu, rəftarın, düşüncənin, danışığın gözəl və ağıllı olanını insanlara öyrədən Quran və hədis-i şəriflərdir.

Allah Özünə yönələn səmimi qullarına bir nemət olaraq Qatından bir hikmət də verir. Quranda Allahın bu neməti qullarından istədiyinə verəcəyinə bu cür diqqət çəkilmişdir:

**Allah istədiyi kəsə hikmət bəxş edir. Kimə hikmət verilmişsə, ona çoxlu xeyir nəsib edilmişdir. Bunu isə ancaq düşüncəli insanlar anlayarlar (Bəqərə surəsi, 269)**

## 41. Quranda hz. Davuda verilən "ifadə səlistliyi" nə mənaya gəlir?

**Biz onun mülkünü möhkəmləndirdik, özünə də hikmət (peyğəmbərlik) və düzgün qərar çıxartmaq qabiliyyəti bəxş etdik. (Sad surəsi, 20)**

İfadə səlistliyi, doğru olanı ən köklü, ən aydın və ən təsirli şəkildə anlada bilmə qabiliyyəti, yəni hikmətli danışa bilməkdir. Bu tərz bir danışığın ən əhəmiyyətli xüsusiyyəti, qarşı tərəfin vicdanını hərəkətə keçirəcək səmimiyyətdə və məntiqdə olmasıdır. İfadə səlistliyi olan bir insanın söylədiyi sözlər, qarşı tərəf üzərində dərin təsir buraxar. Qarşıdakı insanın səhv olan fikirlərində, ideologiyasına, həyat tərzində dəyişikliklər etməsinə və doğru olanı qəbul etməsinə vəsilə olar.

Unutmamaq lazımdır ki, ifadə səlistliyi, insanın çox mədəni olması, çox kitab oxumuş olması, çox təcrübəli olması və ya qrammatika qaydalarını çox yaxşı bilib qüsursuz cümlələr qurmasıyla bağlı bir xüsusiyyət deyil. Bu, Allahın imanı qüvvətli, səmimi, ixlaslı qullarına lütf olaraq verdiyi bir nemətdir.

## 42. Allah inananlara imanlarından ötrü dünyada qarşılıq verərmi?

Allah səmimi olan qullarına dünyada da gözəl bir qarşılıq verər. Onları doğru yola yönəldər, işlərini asanlaşdırar, ürəklərinə hüzur və güvən duyğusu verər, şükür etmələrinin qarşılığında üzərlərindəki nemətləri qat-qat artırar, dininə yardım etmələrindən ötrü onlara kömək edər. Əlbəttə, qulluqlarını sınamaq məqsədiylə arada bəzi çətinliklərlə də sınaya bilər. Ancaq bütün bunlarla yanaşı, onları dünyada gözəl bir həyat ilə yaşadar. Allah möminlərə etdikləri saleh əməllərin qarşılığını dünyada da verəcəyini ayələrində belə bildirmişdir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

**Qullarıma Mənim bu Sözümü de: "Ey Mənim iman gətirən qullarım! Rəbbinizdən qorxun! Bu dünyada yaxşılıq edənləri yaxşılıq (Cənnət) gözləyir. Allahın yaratdığı yer üzü genişdir. Yalnız səbir edənlərə mükafatları hesabsız veriləcəkdir". (Zumər surəsi, 10)**

**Beləcə Allah, dünya və axirət savabının gözəlliyini onlara verdi. Allah yaxşı iş görənləri sevər. (Ali İmran surəsi, 148)**

## 43. Allah inkar edənlərə dünyada bir qarşılıq verərmi?

Allah "**Kafirlərə isə bu dünyada və axirətdə şiddətli əzab verəcəyəm. Onların köməkçiləri də olmayacaqdır**" (Ali İmran surəsi, 56) ayəsiylə inkar edənlərə dünyada da qarşılıq verəcəyini bildirmişdir. Quranda bu kəslərin həm fiziki, həm də mənəvi mənada bir əzabla qarşılaşacaqlarına diqqət çəkilmişdir. Allah "**Onlar ildə bir və ya iki dəfə fəlakətə uğradıqlarını görmürlərmi? Yenə də tövbə etmir, ibrət almırlar.**" (Tövbə surəsi, 126)

ayəsiylə inkar edənlərə dünya həyatında zamanla müxtəlif çətinliklər verdiyinə diqqət çəkmişdir. Quranda əvvəlki qövmlərin zəlzələ, quraqlıq, məhsul qıtlığı, tufan, ildırım düşməsi, ya da bir qövmün toplu olaraq həlak edilməsi kimi əzab şəkilləriylə qarşılaşdıqlarından da bəhs edilir.

Ancaq bununla yanaşı, inkarçıların yaşadıqları mənəvi əzab, həyatlarının sonuna qədər fasiləsiz olaraq davam edən daimi əzab şəklidir. Bu insanlar, vicdanlarının özlərinə göstərdiyi doğrulara uymadığı üçün vicdan əzabından heç bir zaman xilas ola bilməzlər. Yenə eyni şəkildə Quran əxlaqını yaşamadıqları üçün heç bir zaman əsil mənada xoşbəxtliyi, dostluğu, sevgini və sədaqəti yaşaya bilməzlər. Özləri kimi ətraflarındakı insanlar da Quran əxlaqını yaşamadıqları üçün qarışıqlığın, narahatlığın hakim olduğu bir dünyada yaşayırlar. Bununla yanaşı, Allah onlara dünya həyatında bir çox nemət də təklif edir, ancaq Quranda bütün bunların onların yalnız sınanmaq üçün verildiyinə diqqət çəkilmişdir:

**Onların nə malları, nə də övladları səni təəccübləndirməsin. Allah bunlarla, bu dünyada onlara əzab vermək və onların kafir olaraq canlarının çıxmasını istəyir. (Tövbə surəsi, 85)**

## 44. İnsanlar arasında daha təqvalı olanları ayırd etmək mümkündürmü? Hansı rəftarlar təqva əlamətidir?

İnsanlar arasında daha təqvalı olanları qəti olaraq ayırd edə bilmək mümkün deyil. Çünki insanın əsil təqvası, səmimiyyəti və imanı qəlbində gizlidir və bunu biləcək tək güc də Allahdır. İnsanlar isə bir kimsənin təqvası haqqında ancaq qüvvətli bir qənaət əldə edə bilərlər. İnsanların bu mövzuda özlərinə aldıqları ölçü isə insanın rəftarlarıdır. Bir insanın Allaha olan səmimiyyəti, dinə olan sədaqəti, Allahın razılığını qazana bilmək üçün göstərdiyi səmimi səy, dinə xidmət mövzusundakı şövqü və dayanıqlılığı, möminlərə olan sevgisi, bağlılığı qarşı tərəfdə bu adamın təqvası haqqında qüvvətli bir qənaət meydana gətirər. Ancaq yenə də bu mövzuda qəti hökm yalnız Allaha aiddir. İnsan, günahlardan, haram qılınan hərəkətlərdən, ya da Quran əxlaqına uymayan bir rəftar göstərməkdən çəkinərək təqva qazanar. Kim gözəl əxlaqı yaşamaqda daha qərarlı olarsa, dinə fayda gətirmək üçün daha çox səy edər və dinin hökmlərini yerinə yetirməkdə daha dəqiq olarsa, onun təqvası, digər insanlara nisbətən daha çox artar.

Təqva sahibi bir mömin ağlıyla da özünü bəlli edər. Aldığı qərarlar daha məqsədəuyğun olar. Qarşılaşdığı problemlərə çox daha asan və ardıcıl həll yolları gətirər. Danışıqları çox daha hikmətli və təsirli olar. Hadisələrdə başqalarının görə bilmədiyi istiqamətləri, o çox daha açıq bir şüurla təsbit edə bilər. Etdiyi xidmətlərlə özünü ön plana çıxarmağa çalışmaz, ixlaslı bir rəftar içərisindədir. İnsanların məmnuniyyətini və tərifini deyil, Allahın razılığını qazanmağı hədəfləyər. Hansı vəziyyətlə qarşılaşırsa qarşılaşsın, Allahın qoyduğu sərhədlərdən kənara çıxmaz. Bütün bu əlamətləri üzərində daşıyan bir insanın təqva sahibi bir kimsə olduğu ümid edilər. Ancaq yenə də adamın həqiqi mənada təqva sahibi bir insan olub-olmadığı, ya da kimin kimdən daha üstün bir imana sahib olduğu mövzusunda qəti bir qənaətə gəlmək mümkün deyil. Çünki insan bu mövzuda ancaq kənardan gördüyü qədəriylə, səthi bir qiymətləndirmə edə bilər. İnsanların həqiqi imanını, təqvasını, ixlasını və Allaha olan yaxınlığını isə ancaq Allah bilir.

## 45. Bir başqasının günahını boynuna götürmək və axirətdə onun yerinə cəza çəkmək mümkün ola bilərmi?

Quranda bildirildiyinə görə, bir insanın bir başqasının günahını boynuna götürməsi və bundan ötrü axirətdə onun yerinə cəza çəkməsi mümkün deyil. Allah hər insanı etdiklərindən ötrü tək başına məsul tutacağını və tək başına sorğulayacağını ifadə etmişdir. Çünki Allah dünya həyatında hər insanın içinə doğru ilə yanlışı özünə söyləyən və onu hər zaman Allahın razılığını qazanmaq üçün çağıran bir vicdan vermişdir. Üstəlik, bütün insanlara, Qatından doğrunu və yanlışı öyrədən bir kitab endirərək, peyğəmbərləri vasitəsilə dinini təbliğ edərək onları qarşılaşacaqları bu əzaba qarşı xəbərdar etmişdir. Bütün bunların ardından doğru olandan üz çevirən kəslər isə, bu seçimlərini öz iradələri, mühakimələri və istəkləri istiqamətində etmişlər. Bu seçimlərinin nəticəsindən də yenə tək başlarına məsul tutulacaqlar. Quranda bu hadisə insanlara belə xəbər verilmişdir:

**Heç bir günahkar başqasının günah yükünü daşımaz. Yükü ağır olan kimsə öz yükünü daşımaq üçün başqasını köməyə çağırsa və çağırdığı kimsə yaxın qohumu olsa belə, o yükdən heç nə daşınmaz. Sən ancaq Rəbbindən Onu görmədikləri halda qorxanları və namaz qılanları xəbərdar edirsən. Kim günahlardan təmizlənirsə, öz xeyrinə təmizlənmiş olur. Qayıdış də ancaq Allahadır. (Fatir surəsi, 18)**

Həmçinin, Allah bir başqa ayəsində dünyada ikən insanlara bu şəkildə vədlər edərək onları günaha sürükləyən kəslərin yalan danışdıqlarını bildirərək də insanları xəbərdar etmişdir:

**Kafirlər möminlərə: "Bizim yolumuzla gedin, günahlarınızı öz üstümüzə götürək" – deyirlər. Halbuki onların heç biri heç kimin günahının altına girən deyildir. Şübhəsiz ki, onlar yalançıdırlar. (Ənkəbut surəsi, 12)**

## 46. İslamı və Quranı başqalarına izah etmək hansı şəkildə olar?

Ən gözəl təbliğ, insanın, din əxlaqını qarşısındakı kimsəyə həm şifahi, həm də feli olaraq izah etməsiylə olar. Dinin hökmlərini və Quran əxlaqını şifahi olaraq izah edən bir kimsənin, bir yandan da izah etdiklərini bütün səmimiyyətiylə yaşaması, bunlarla nə nəzərdə tutulduğu mövzusunda çox daha qəti bir nəticəyə gəlinməsini təmin edər. Səmimiyyətin həqiqi ölçüsü, insanın izah etdikləriylə yaşadıqları arasındakı ardıcıllıq olduğu üçün, görülən bu səmimiyyət qarşı tərəfin dinin gözəlliyini qavramasında əhəmiyyətli bir rol oynayar. Misal olaraq, insan bir tərəfdən fədakarlığın nə qədər fəzilətli bir rəftar olduğunu izah edərkən, bir tərəfdən də eqoist bir mövqe içərisində olsa, izah etdiklərinin qarşı tərəf üzərində bir təsiri olmaz. Səmimiyyəti haqqında da ciddi şübhələr meydana gəlməsinə səbəb olar. Əksinə insanın insanları yaşamağa dəvət etdiyi gözəl əxlaqı özü də göstərdiyində, həm o adamın səmimiyyəti mövzusunda qəti bir qənaət meydana gələr, həm də nəzərdə tutduğu gözəl əxlaqın gündəlik həyatda nə şəkildə tətbiq edildiyini görmüş olar. Yenə eyni şəkildə təvazökarlığı izah edən bir insanın, rəftarlarıyla da bu əxlaqı göstərməsi din əxlaqının ən gözəl şəkildə təbliğ edilməsini təmin edər. Uca Allah iman gətirənləri insanlara izah etdikləri şeyləri yaşamaları mövzusunda belə xəbərdar etmişdir:

**Etməyəcəyiniz şeylərdən danışmağınız Allah tərəfindən böyük nifrətlə qarşılanır. Şübhəsiz ki, Allah möhkəm bir divar kimi səf-səf düzülüb Onun yolunda vuruşanları sevir (Saff surəsi, 2-3)**

## 47. Gözəl əxlaqın bir sərhədi vardırmı? İnsan müəyyən bir əxlaqa çatdıqdan sonra "bu qədər yetər" deyə bilərmi?

Gözəl əxlaqın heç bir sərhədi yoxdur. Edilən hər rəftarın, deyilən hər sözün daha gözəli, daha yaxşısı mütləq vardır. İnsanın heç bir zaman "bu qədər yetər" ya da "ən yaxşısı budur" deyə biləcəyi bir vəziyyəti olmaz. Üstəlik, insan nə zaman özünü kafi görməyə başlasa, o zaman əxlaqında, rəftarlarında pozuqluqlar ortaya çıxmağa başlayar. Özünü inkişaf etdirməyə, yeniləməyə ehtiyacı olmadığını düşündüyü üçün heç bir gözəllikdən istifadə edə bilməz və əxlaqında heç bir irəliləmə etməz. Allah ayələrində özünü kafi, yəni müstağni görən kəslərin əxlaqlarında pozğunluq olacağına diqqət çəkmişdir:

**Xeyr; həqiqətən insan, azar. Özünü müstağni gördüyündən. (Ələq surəsi, 6-7)**

Bu səbəblə, insan həyatının son anına qədər həmişə özünü inkişaf etdirməyə və həmişə daha gözəl olanı, daha yaxşı olanı əldə etməyə çalışmalıdır. Çünki heç bir insan, axirətdə Allahın özü haqqındakı hökmü bəlli olana qədər, Allahın razılığını və cənnətini qazandığından əmin ola bilməz. Bu da özünü heç bir zaman kafi görməməsini təmin edən ən əhəmiyyətli mövzulardan biridir.

## 48. Müsəlman vaxtını necə dəyərləndirər?

Qurana baxdığımızda möminin "boş vaxt" deyə bir anlayışı olmadığını görərik, müsəlmanın hər anı çox məşğuldur. Allahdan qorxan və Onun əmrlərini dəqiqliklə tətbiq edən bir mömin daha çox xeyir işləyərək Allaha daha da yaxınlaşmaq üçün həmişə yaxşı işlər görər. Vaxtını Allahın Quranda bildirdiyi ibadətlərlə keçirər. Bir işini bitirdiyi zaman da dərhal yeni bir işə yönələr. Daim xeyir və gözəllik axtarar. Bu səy arasında fasilə, ara, sərhəd yoxdur. Mömin üçün bir işin tamamlanması yeni bir işin başlamalı olduğunun göstəricisidir. Çünki mömin dünyada keçirdiyi hər saniyəni Allahın razılığını qazanmaq üçün cəhd etməli olduğunu və axirətdə hər anının hesabını verəcəyini bilir. Bu səbəblə də, yalnız Allahın razılığını qazana bilmək ümidiylə hər anını Allahın ən razı olacağını ümid etdiyi işləri edərək keçirər. Quranda möminlərin bu səyi bu cür bildirilmişdir:

**Bu halda boş qaldığın zaman, dayanmadan (dua və ibadətlə) yorulmağa-davam et. Və yalnız Rəbbinə rəğbət et. (İnşirah surəsi, 7-8)**

## 49. Din əxlaqını izah etməyin qarşılığında insanlardan bir qarşılıq gözlənə bilərmi?

Möminlər din əxlaqını Allahın razılığını qazana bilmək və Quranın bu mövzudakı hökmünü yerinə yetirə bilmək məqsədiylə təbliğ edərlər. Bunun qarşılığında da Allahın razılığı və cənnəti xaricində dünyəvi heç bir qarşılıq gözləməzlər.

Bütün peyğəmbərlər də həyatlarının sonuna qədər bu yolda böyük bir səy göstərmiş, ancaq din əxlaqını izah etdikləri kəslərdən heç bir şəkildə dünyəvi qarşılıq istəməmişlər. Və hər peyğəmbər göndərildiyi qövmə əvvəlcə özlərindən heç bir qarşılıq gözləmədiyini vurğulamışdır. Quranda peyğəmbərlərin göstərdiyi bu üstün əxlaq nümunə kimi verilmişdir:

**"Artıq Allahdan qorxun və mənə itaət edin. Buna qarşılıq mən sizdən heç bir mükafat istəmirəm; Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir." (Şuəra surəsi, 179-180)**

## 50. Quranda yetimlərin baxımı necə təsvir edilir?

Quranda, ana və atasını itirdiyi üçün təhsilini təmin edəcək və baxımını boynuna götürəcək bir adama möhtac qalan yetim uşaqlara qarşı mərhəmətli və gözəlliklə davranılmasını əmr edilmişdir:

**Elə isə yetimə xor baxma! (Duha surəsi, 9)**

Allah ayələrində möminlərə yetimlərə qarşı ədalətli olmağı, qazanılanlardan yetimlərə sərf etməyi, onlara yaxşılıqla davranmağı, yetimlərin mallarını ədalətlə xərcləməyi və müəyyən yetkinliyə çatdıqlarında da mallarını onlara verməyi nəsihət etmişdir.

Allah Quranda həmçinin, yetim olanın gözəl əxlaqlı, yaxşı bir insan kimi yetişdirilməsini, yəni təhsilində diqqətli və dəqiq olunmasını tövsiyə etmişdir. Və möminləri yetimləri qorumaq və maddi təminat altına alaraq böyütmə mövzusunda təşviq etmişdir:

**... Səndən yetimlər haqqında soruşurlar. De: “Onlara yaxşılıq etmək xeyirlidir. Əgər onları öz işinizə qatırsınızsa, bilin ki, onlar sizin qardaşlarınızdır”.... (Bəqərə surəsi, 220)**

Mömin bir kimsə yetimin malına əsla haqsızlıq etməz. Çünki Allah yetimin malına göz dikərək bu maldan mənfəət təmin etməyə çalışan mərhəmətsiz bir rəftarın ayədə böyük bir cinayət olduğunu bildirmişdi:

**Yetimlərin mallarını özlərinə verin və pisi təmiz olanla dəyişdirməyin. Onların mallarını mallarınızla birlikdə yeməyin. Çünki bu, böyük bir günahdır. (Nisa surəsi, 2)**

Məhz bütün bunlardan dolayı möminlər yetimlərin mallarını onlar böyüyüb özlərinə baxacaq vəziyyətə gələnə qədər böyük bir etina ilə mühafizə edər və yetkin bir yaşa gəldiklərində də bütün haqlarını özlərinə təhvil verərlər.

## 51. İnsanın tam məlumat sahibi olmadığı mövzularda mübahisə etməsi doğrudurmu?

Allah ayələrində insanlara məlumat sahibi olmadıqları mövzularda müzakirəyə girməmələrini nəsihət edər. Çünki hər mövzunu, bir billəndən daha yaxşı bilən mütləq vardır. İnsanın məlumat sahibi olmadığı bir mövzu haqqında mübahisə etməsi insana heç bir şey qazandırmaz. Belə bir vəziyyətdə edilməli olan ən gözəl rəftar, heç bir müzakirəyə girmədən bilənlərlə məsləhətləşmək və beləcə mövzunun ən doğrusunu öyrənməkdir.

Quranda insanın məlumatı olmadığı bir mövzunun ardından getməməli olduğu belə xatırladılmışdır:

**İnsanlardan eləsi də var ki, heç nə bilmədiyi halda Allah haqqında mübahisə edir və hər bir asi şeytana itaət edir. Onun haqqında belə yazılmışdır: kim şeytanla dostluq etsə, şeytan onu doğru yoldan çıxardıb alovlu Odun əzabına sürükləyər. (Həcc surəsi, 3-4)**

## 52. Başqalarını daima xəbərdar edən, ancaq söylədikləri şeyləri özləri tətbiq etməyən kəslər Quranda necə tərif edilir?

Allah Quranda möminlərə bir-birlərinə yaxşılığı əmr edib, pislikdən çəkindirmələrini nəsihət etmişdir. Bu, Allahın bəyəndiyi bir davranışdır, lakin əsil əhəmiyyətli olan adamın başqalarına xatırlatdığı mövzulara özünün də diqqət etməsi və onlara öz rəftarlarıyla və əxlaqıyla nümunə ola bilməsidir. Çünki əgər insan edilən bir rəftarın səhv olduğunu bilir və bundan narahatlıq duyursa, bu vəziyyətdə özü də bu səhvdən qurtulmaqla və doğru olanı tətbiq etməklə eyni dərəcədə məsuldur. Allah bu mövzunu möminlərə belə xatırlatmışdır:

**Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda, özünüzü unudursunuz? Halbuki siz kitabı oxuyursunuz. Yenə də düşünüb-daşınmırsınız? (Bəqərə surəsi, 44)**

## 53. İnsanlar ümumiyyətlə yalnız çətinlik anında dua edərlər. Bu rəftarın yanlışlığı, Quranda necə tərif edilir?

Quran əxlaqından uzaq yaşayan kəslər yalnız başlarına bir xəstəlik, bir çətinlik, ya da "bir bəla" gəldiyində dua edərlər. Bu dövrlərdə Allaha sığınan və qarşılaşdıqları çətinlikləri aradan qaldırıb nemət verməsi üçün gecə-gündüz Ona dua edən insanlar, bu vəziyyətdən xilas olduqlarında dərhal dua etməyi və onlara verdiyi nemətdən ötrü Allaha şükür etməyi unudarlar. Çətinlik və sıxıntı anında göstərdikləri rəftar onların çarəsiz qaldıqlarını anlamalarındandır. Allaha qarşı olan əsil səmimiyyətsizliklərini isə bu çətinlikdən xilas olduqdan sonra dərhal

ortaya qoyarlar. Quranda bu kəslərin göstərdiyi ikiüzlü və səmimiyyətsiz rəftar belə göstərilmişdir:

**Dağların saldığı kölgələr kimi dalğalar onları çulğadığı zaman onlar dini məhz Allaha məxsus edərək Ona yalvararlar. Allah onları xilas edib quruya çıxartdıqda isə aralarından bəziləri küfrlə iman arasında orta yol tutar. Bizim ayələrimizi yalnız nankor xainlər inkar edərlər (Loğman surəsi, 32)**

## 54. Allah bütün insan topluluqlarına din əxlaqını izah edən xəbərdaredici: elçi göndərdimi?

Allah Quranın "... Heç bir ümmət yoxdur ki, içində bir xəbərdar edən gəlib-keçmiş olmasın" (Fatir surəsi, 24) ayəsi ilə gəlmiş keçmiş bütün insan topluluqlarına mütləq insanları xəbərdar edən vəzifəli elçilər göndərdiyini bildirmişdir. Bu elçilər olduqları cəmiyyətlərə Allahın əmr etdiyi din əxlaqını, etməli olduları ibadətləri hər cür şəkillərdə izah etmiş, onları cənnətlə müjdələyib cəhənnəm əzabı ilə xəbərdar edib qorxutmuşlar. Həmçinin, elçilər Allahın dinini tətbiq etməkdə göstərdikləri diqqət, sahib olduqları üstün əxlaq və Allah qorxularının şiddəti ilə yanındakı insanlara hər zaman nümunə olmuşlar. Allahın bütün insanları elçiləri vasitəsilə xəbərdar etməsinin digər bir səbəbi isə ayədə belə bildirilmişdir:

**Biz müjdə verən və qorxudan elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah Qüdrətlidir, Müdrikdir (Nisa surəsi, 165)**

Bu, Allahın üstün ədalətinin bir təcəllisidir. Hesab günündə Allaha qarşı olan məsuliyyətlərindən ötrü məlumatsız olduğunu söyləyərək bəhanə irəli sürəcək, Allahın əzabıyla xəbərdar olunub qorxudulmamış heç kim olmayacaq və hər kəs layiq olduğu qarşılığı ən ədalətli şəkildə alacaq.

## 55. "Zənnə qapılmaq" Quranda necə tərif edilir?

Zənn və təxminlə hərəkət etmək Allahın bəyənmədiyi bir əxlaqdır. Allah Quranın bir çox ayəsində zənnə görə hərəkət etməyin cahil cəmiyyətə aid bir xüsusiyyət olduğuna diqqət çəkmiş və zənnin insanlara heç bir fayda vermədiyini bildirmişdir. İnanan qullarına zənndə olmaqdan çəkinmələrini əmr etmişdir. Möminlər Allahın bu tövsiyəsinə uyaraq hər hansı bir dəlili olmayan, qulaqdan dolma məlumatlarla heç bir mövzuda özlərinə görə fikir yürütməz. Əgər bir mövzuda söyləyəcəkləri bir söz və ya verəcəkləri bir fikir varsa, bunu mütləq Quran əxlaqına uyğun olaraq, qəti dəlillərə istinad edərək və ədalətli bir şəkildə edərlər. Kimsə haqqında ona soruşmadan, etibarlı bir dəlil əldə etmədən zənnə əsaslanan bir hökm verməz, hər hansı bir nəticəyə gəlməzlər.

Möminlərin bu mövzuda göstərdikləri diqqət onların Allah qorxusundan qaynaqlanır. Etdikləri hər işin axirətdə qarşılarına çıxacağını bilən və Allahın əzabından qorxub çəkinən möminlər, bu mövzuda son dərəcə dəqiq və ədalətli davranarlar. Allah Quranda zənn mövzusunu belə açıqlamışdır:

**"Ey iman gətirənlər! Zənndən çəkinin, çünki zənn edilənlərin bir qismi günahdır ..." (Hucurat surəsi, 12)**

## 56. İnsanların ibadətlərini yaşlılığa təxirə salmaq doğru olarmı?

Allah normal bir ağıla və şüura sahib olan hər kəsi Quran əxlaqını yaşamaqla və dinin hökmlərini yerinə yetirməklə məsul tutar. Bu ibadətləri yerinə yetirən bir insan həm dünya həyatında gözəl həyat yaşayar, həm də sonsuz cənnət həyatını qazanar. İnsanın "gəncliyimi yaşayım, necə olsa ölməyə yaxın ibadətlərimi edər, axirəti də qazanaram" düşüncəsi ilə Allaha qarşı olan məsuliyyətini bilə-bilə təxirə salması axirət həyatını itirməsinə səbəb ola bilər. Allah **Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!" – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq** (Nisa surəsi, 18) ayəsiylə insanlara bu həqiqəti xatırlatmışdır. Həmçinin unudulmamalıdır ki, heç kim ölümlə nə vaxt qarşılaşacağını bilə bilməz. Buna baxmayaraq insanın öləcəyi vaxtı bilirmiş kimi ibadətləri yerinə yetirməyi müəyyən bir vaxta təxirə salması şübhəsiz ki, böyük bir səhv olar. Çünki ölümlə qarşılaşdıqdan sonra insan hər nə qədər peşman olub geri dönmək istəsə də bir daha belə bir imkan əldə edə bilməyəcək.

## 57. "Mənim ürəyim təmizdir" deyərək ibadətlərin təxirə salınması doğru olarmı?

Dünya bütün insanlar üçün bir imtahan yeridir. **Allah "O, əməl (davranış və hərəkət) baxımından hansınızın daha yaxşı (və gözəl) olacağını sınamaq üçün ölümü və həyatı yaratdı ..."** (Mülk surəsi, 2) ayəsi ilə bütün insanlara bu həqiqəti bildirmişdir. Bu imtahanın gərəyi olaraq insanlar etdikləri hər rəftardan, faktiki olaraq yerinə yetirdikləri və ya yetirməyib yubatdıqları bütün ibadətlərdən məsuldurlar. Belə bir vəziyyətdə ürək təmizliyi tək başına bir ölçü ola bilməz. Şübhəsiz ki, insanın ürəyinin təmiz olması, yaxşı niyyətli, dürüst bir şəxsiyyətə sahib olması Allah qatında qiymətlidir. Ancaq bu ürək təmizliyi və səmimiyyətin ən əhəmiyyətli göstəricisi də insanın Allahın əmrlərini dəqiqliklə yerinə yetirməsiylə özünü müəyyən edər. Yoxsa Quranda bildirilən ibadətləri yerinə yetirməyən, Allahdan qorxub çəkinməyən, ölçüsü Quran və Allah rizası olmayan bir insan nə qədər yaxşı niyyətli olduğunu iddia edirsə etsin, bu düşüncəsinin ona axirətdə bir faydası olmayacaq.

Həmçinin "ürək təmizliyi" nin yeganə ölçüsü Qurandır. Yəni bir insan ancaq Qurana görə səmimi niyyətli, ixlaslı bir insansa "ürəyim təmiz"dir deyə bilər. Yoxsa bir insanın özünün dəyərləndirdiyi mühakimələri, cahillik ölçüləriylə ürək təmizliyi iddiasında olmasının bir mənası yoxdur.

## 58. Qurana görə daha əvvəl göndərilən müqəddəs kitabların vəziyyəti nədir?

Allah, hz. Məhəmməd (s.ə.v)-ə endirdiyi Qurandan əvvəl, hz. Musaya Tövratı, hz. Davuda da Zəburu və hz. İsaya da İncili vəhy etmişdir. Bu kitabların hər biri göndərildikləri dövrlərdə Allahın dinini izah edən haqq kitablar olaraq peyğəmbərlər tərəfindən təbliğ edilmişlər. Ancaq daha sonra bu cəmiyyətlərdəki müxtəlif azğın inanclı kəslər tərəfindən təhrif edilmiş və bəzi batil məlumatlarla qarışdırılmışdır. Necə ki, Quranın göndərilmə səbəblərindən biri də bu kitabların təhrif olmuş və həqiqi dini izah edən haqq kitabın qalmamış olmasıdır. Allah Quran ilə

insanlara haqq dini bildirmişdir. Quranı, “**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.**” (Hicr surəsi, 9) ayəsinə görə qiyamətə qədər Allah qoruyur.

## 59. Quranda bəhsi keçən "Kitab əhli" kimlərdir?

Quranda bəhsi keçən Kitab əhli özlərinə Tövrat və İncil nazil olan yəhudilər və xristianlardır. Ancaq zaman keçdikcə bu kitabların təhrif olmasının ardından Allah bu insanları xəbərdar edib qorxutmaq üçün peyğəmbər olaraq hz. Məhəmməd (s.ə.v)-i və müqəddəs kitab olaraq da Quranı göndərmişdir. Quranda kitab əhli ilə əlaqədar olan ayələrdən bəziləri belədir:

**Hamısı eyni cür deyillər. Kitab əhli içərisində haqdan möhkəm yapışan bir camaat vardır ki, onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar. Belələri Allaha, Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər. (Ali İmran surəsi, 113-114)**

**Həqiqətən, Kitab əhlindən elələri də var ki, Allaha müti olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirir, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndi (Ali İmran surəsi 199)**

## 60. İnsanın dünyada etdiyi səhvlərinin qarşılığını dərhal almamasının hikməti nədir?

Dünyada edilən səhvlərin qarşılığının dərhal verilməməsi insanı heç bir şəkildə aldatmamalı və zəifliyə aparmamalıdır. Çünki Allah insanlara müəyyən bir müddət verir və beləcə onların necə bir rəftar göstərəcəklərini sınayır. Gözəl davranışda olanlara cənnət həyatını, pislik edənlərə da cəhənnəm həyatını vəd edir. Məhz belə bir vəziyyətdə etdiyi səhvin əvəzini dərhal almayan bir insan qətiyyən buna aldanmamalıdır. Əksinə, Allahın şəfqətindən, mərhəmətindən ötrü özünə zaman verdiyini görməli və bu vəziyyəti tövbə edib, etdiyi səhvi düzəltmək üçün bir fürsət olaraq qiymətləndirməlidir.

Quranda keçən **Əgər Allah insanları etdikləri günahlara görə dərhal cəzalandırsaydı, yer üzündə bir canlını belə sağ buraxmazdı. Lakin Allah onlara müəyyən vaxtadək möhlət verir. Vaxtları çatanda isə hər kəsə öz əməlinə görə cəza, yaxud mükafat verəcəkdir. Şübhəsiz ki, Allah Öz qullarını görür.** (Fatir surəsi, 45) ayəsi bu həqiqəti insanlara bildirir.

## 61. İnsan ağlından keçirdiyi şeylərdən də məsuldurmu?

Şeytan insanların ağıllarına müxtəlif mənasız vəsvəsələr, ya da şübhə dolu düşüncələr verə bilər. Əgər insan, şeytanın bu fısıltılarına aldanar, ona inanar və onun sözləri istiqamətində hərəkət edərsə, əlbəttə ki, bu düşüncələrindən məsul ola bilər.

Ancaq əgər bu pıçıltıları şeytandan olduğunu fərq edər, Allaha sığınar və doğru olan rəftarı göstərərsə, bu vəziyyətdə ağlından keçən pislikləri dərhal dağıdar və doğru düşünməyə

başlayar. İnsan şeytanın verdiyi pis düşüncələrə etibar etmədiyi üçün bu düşüncələr də itib gedər. Quranda möminlərin özlərinə şeytandan bir vəsvəsə gəldiyində göstərdikləri davranış belə açıqlanmışdır:

**Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman Allahı xatırlayar və dərhal həqiqəti görərlər. (Əraf surəsi, 201)**

Amma bunu da qeyd etmək lazımdır ki, insan bütün bunları bildikdən sonra hələ də ağlında vəsvəsələrin, şübhələrin, mənfi düşüncələrin qalmasına izin verirsə bunlardan məsul tutula bilər. Daima başında möminlərə qarşı pislik, fitnə, fücur tərzində düşüncələr keçirən insan, niyyətindən də məsul tutula bilər. Allah bir ayəsində belə bildirir:

**De ki: "Kökslərinizdə olanı gizləsəniz də, üzə çıxarsanız da Allah bilir. Və göylərdə olanı da, yerdə olanları da bilir. Allah hər şeyə qadirdir." (Ali İmran surəsi, 29)**

## 62. Ölən bir kimsənin ardından kədərlənmək doğru olarmı?

Allah hər insan üçün müəyyən bir ömür müddəti təyin etmişdir və heç kimin bu zamanın qarşısını alması mümkün deyil. Bu mövzuda təqdir Allahın olduğu üçün belə bir vəziyyətlə qarşılaşanda möminə düşən ən gözəl rəftar, Allahın yaratdığı qədərə razı olmaq və bu hadisəyə təvəkkül və təslimiyyətlə yaxınlaşmaqdır. Əksinə göstərilən təvəkkülsüz bir rəftar Allahın yaratdığı qədərə qarşı üsyan deməkdir ki, bu, bir mömінin əsla yanaşmayacağı bir davranışdır.

Üstəlik, əgər ölən insan mömin isə, ölüm ilə birlikdə Allahın məmnuniyyətinə və cənnətinə qovuşacaq və dünyayla müqayisə edilməyəcək qədər böyük nemətlər içərisində gözəl bir həyat yaşayacaq. Bu vəziyyətdə onun üçün kədərlənmək yox, əksinə belə şərəfli bir nəticəyə çata bildiyi üçün sevinmək lazımdır. Əgər ölən adam dünyadakı həyatını Allahın razılığını qazanmaq üçün yaşamamışsa, bu vəziyyətdə də cəhənnəmlə qarşılaşacaq. Ancaq bu da yenə Allahın ədalətinin gərəyi və Allahın təqdiri olduğu üçün yenə kədərlənəcək bir mövzu yoxdur. Çünki bu insan özünə bu son xatırladıldığı halda, bilə-bilə inkar yolunu seçmişdir.

Bununla yanaşı, insanın ölümlə birlikdə sevdiyi insandan uzaq qaldığı üçün kədərlənməsi də yersizdir. Çünki unudulmamalıdır ki, əgər o insan da Allahın razılığını qazanmaq üçün ciddi bir səy göstərirsə, sonsuz cənnət həyatında sevdiyi insanla sonsuz bərabərliyi əldə edəcəyi mümkündür. Bu səbəbdən, bir mömin bir başqa mömінin ölümünün ardından onun cənnətə qovuşmuş olmasını ümid etdiyi üçün heç bir şəkildə kədərə qapılmaz. Quranda möminlərin, ölümün ardından cənnətə qovuşmağı umduqlarına görə sevinib müjdələşmələri tövsiyə edilmişdir.

## 63. İnsanın, ətrafındakı kimsənin iman etməməsinə görə hüznə qapılması doğrudurmu?

Allahın və axirətin varlığına qəti olaraq iman edən bir insan, ətrafındakı insanların da özü kimi doğrunu görməsini və insan fitrətinə ən uyğun həyat şəkli olan Quran əxlaqını yaşamasını istəyər. Əks təqdirdə, qarşısındakı kimsənin sonsuz bir cəhənnəm əzabıyla qarşılaşacağını

bildiyi üçün bu kimsənin iman etməsi üçün əlindən gələn bütün səyi göstərər. Ancaq unudulmamalıdır ki, insan din əxlaqını izah etməklə və insanları doğru olana çağırmaqla məsuldur, lakin bu kəslərin imanı qəbul edib-etməmələrindən məsul deyil. Hidayəti verə biləcək tək güc Allahdır. Bir insan gecə-gündüz din əxlaqını izah etsə, ən təsirli izahatları versə, ən təsiredici nümunələri də göstərsə, əgər Allah bu adam üçün hidayət diləməmişsə, izah edilənlərin heç biri qarşı tərəf üzərində təsirli olmaz. Əgər Allah istərsə, istədiyi adama istədiyi anda hidayət verə bilər. Təqdir Allaha aiddir və Allah hökm verənlərin ən yaxşısıdır. Allahın təyin etdiyi qədər, verdiyi qərar insanlar üçün ən xeyirli olandır. Məhz bu səbəblə, göstərilən bütün səyə baxmayaraq ətrafındakı bir kimsənin iman etməməsi, mömin üçün heç zaman kədər vəsiləsi ola bilməz. Allahın təqdirinə təslim olmağın Qurana görə göstərilə biləcək ən gözəl davranış olduğunu bilər və təvəkkül edər.

## 64. İnsanlara axirətdə kimlər şahidlik edəcək?

İnsanlar, dünyada etdikləri hər hərəkətlə, ağıllarından keçirdikləri hər düşüncəylə hesab günü qarşılaşacaqlar. **"... Həqiqətən, Allah, hər şeyin üzərində şahid olandır."** (Həcc surəsi, 17) ayəsiylə bildirildiyi kimi, Allah dünyada onların etdikləri hər şey üzərində şahiddir. Quranda həmçinin insanların qarşısına hesab günü şahid olaraq gətiriləcək kəslərdən də söz edilir. Axirətdə şahidlik edəcək olan kəslərdən bəziləri belə xəbər verilmişdir:

**Nəhayət, ora çatınca, eşitmə, görmə (duyğuları) və dəriləri öz əleyhlərinə şahidlik edəcək. (Fussilət surəsi, 20)**

**Və rəsullar də (şahidlik üçün) müəyyən bir vaxtda gətirildiyi zaman ... (Mursəlat surəsi, 11)**

**Biz hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman onların halı necə olacaq? (Nisa surəsi, 41)**

**Bu gün onların ağızlarına möhür vurarıq. Qazandıqları günahlar barəsində onların əlləri Bizimlə danışar, ayaqları da şəhadət verər. (Yasin surəsi, 65)**

**Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, əməllər yazılmış kitab hər kəsin qarşısına qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcəkdir. Onların arasında ədalətlə hökm veriləcək və onlara haqsızlıq edilməyəcəkdir. (Zumər surəsi, 69)**

**Hər ümmətdən bir şahid göndərəcəyimiz gün, kafirlərə üzrxahlıq etməyə izin verilməyəcək və üzr diləmələri də tələb olunmayacaqdır. (Nəhl surəsi, 84)**

**O gün hər ümmətə özlərindən bir şahid göndərəcəyik, səni də onlara şahid gətirəcəyik.... (Nəhl surəsi, 89)**

**Şübhəsiz ki, Biz Öz elçilərimizə və möminlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət verəcəyi gün yardım edəcəyik. (Mömin surəsi, 51)**

**Hər kəs onu qova-qova məhşərə gətirənlə və bir də əməllərinə şahidlik edənlə birlikdə gələcəkdir. (Qaf surəsi, 21)**

## 65. Qürurlu və təkəbbürlü bir insana qarşı necə rəftar göstərmək lazımdır?

Möminlərin ən əhəmiyyətli xüsusiyyətlərindən biri də, şərtlərə, insanlara və mühitə görə gözəl əxlaqlarından, ya da inanclarından güzəştə getməmələridir. Bu səbəblə qürurlu, ya da təkəbbürlü bir rəftarla qarşılaşdıqları zaman da heç bir şəkildə qarşı tərəfin düşdüyü səhvə düşməz, əksinə ən təvazökar rəftarlarıyla qarşı tərəfə də nümunə olmağa çalışırlar. Allahın razı olacağını bildirdiyi rəftar da budur onsuz da. Allah Quranda pis bir rəftara gözəl əxlaqla cavab verildikdə, bunun qarşı tərəf üzərində də təsirli olacağını bildirmişdir:

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar (Fussilət surəsi, 34)**

## 66. Səbirsizlik, ümidsizlik kimi anlayışların möminlərin həyatlarında yeri vardırmı?

**Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, sərhəd boyu növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!** (Ali İmran surəsi, 200) ayəsiylə möminlərə bir çətinliklə qarşılaşdıqları zaman səbir göstərməyi tövsiyə etmişdir. Möminlər bu çətinliyi aradan qaldırmaq üçün ağıllarını, maddi və mənəvi bütün imkanlarını sonuna qədər istifadə edər, əllərindən gələn bütün səyi göstərərlər.

Ancaq bir tərəfdən də çətinliklərin Allahın özlərini sınamaq üçün yaratdığı xüsusi hadisələr olduğunu və bu hadisələrin ardında mütləq bir xeyir gizləndiyini bilərək Allaha təvəkkül edərlər. Möminlərin səbirlərində Allaha olan bu inamları əsasdır. Allahın hər hadisəni qəti olaraq bir hikmət üzərinə yaratdığına və möminlərin dualarını qəbul edərək bu çətinlikləri aradan qaldıracağına dair Allaha güvənərlər. Məhz bu səbəblədir ki, heç bir zaman ümidsizlik kimi bir duyğuya düşməzlər.

Allah bir ayəsində, **Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"** "(Zumər surəsi, 53) deyərək möminlərə hər nə olursa olsun, Allahın rəhmətindən ümid kəsməməyi əmr etmişdir.

## 67. "Dünya həyatına razı olmaq" nə deməkdir?

"Dünya həyatına razı olmaq" insanın axirət həyatını göz ardı edərək bütün planlarını yalnız dünyaya görə etməsi və yalnız bu dünya üçün yaşamasıdır. Bu kəslər təxminən altmış-yetmiş il davam edən dünya həyatını, sonsuz axirət həyatından üstün tutarlar. Dünya minlərlə əksikliklərlə dolu ikən, cənnətdə qüsursuz və sonsuz bir həyat olduğunu unudarlar. Dünya

həyatını yaxın, axirət həyatını uzaq gördükləri üçün əvvəlcə özlərinə görə dünyanın dadını çıxarmaq istəyərlər.

Ancaq burada etdikləri ən böyük səhv bir tərəfdən dünya həyatını yaşayarkən, digər tərəfdən də axirət üçün heç bir hazırlıq görməmələridir. Halbuki, axirəti hədəfləyən insanlar həm dünya həyatının nemətlərindən, həm də cənnətin gözəlliyindən faydalana biləcəklər. Yalnız dünya həyatına razı olan kəslər isə yalnız dünyadan istifadə edə biləcək, amma axirətdə əzabla qarşılaşacaqlar. Quranda dünya həyatına razı olanların alacağı qarşılıq belə bildirilmişdir:

**Şübhəsiz ki, Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər, dünya həyatından razı qalıb onunla rahatlıq tapanlar və ayələrimizdən xəbərsiz olanların – məhz onların qazandıqları günahlara görə sığınacaqları yer Oddur. (Yunis surəsi, 7-8)**

## 68. İnsanın yaxın bir qohumunun dini ibadətlərini yerinə yetirməsinin o insana bir faydası olarmı?

**Nə qohumlarınız, nə də övladlarınız sizə bir fayda verə bilər. Qiyamət günü Allah sizi bir-birinizdən ayıracaqdır. Allah nə etdiklərinizi görür.** (Mumtəhənə surəsi, 3) ayəsiylə heç bir yaxın qohumun qiyamət günündə bir-birinə fayda verə bilməyəcəyini bildirmişdir.

Yenə bir başqa ayədə də "... **o Bizə, hüzurumuza tək-tənha gələcəkdir..**" (Məryəm surəsi, 80) sözləriylə Allah hər insanın etdiklərindən tək başına sorğuya çəkiləcəyini xatırlatmışdır. Bu ayələrdən də aydın olacağı kimi, axirət günündə heç bir insanın etdiyi bir ibadət bir başqasına fayda verməyəcəkdir. Çünki Allah hər insana müstəqil bir anlayış, müstəqil bir vicdan vermiş və hər birini müxtəlif yollarla ayrı-ayrı xəbərdar etmişdir. Bu səbəblə, insanın həyat yoldaşı, uşağı kimi ən yaxın kəslərin belə bütün ibadətlərini yerinə yetirməsi, adamın qurtuluşunu təmin etməz. Əksinə bütün bunları ən yaxınlarından gördüyü və doğru olduğunu bildiyi halda əməl etməməsi, axirətdə bu adamı Allaha qarşı məsuliyyət altında buraxa bilər.

## 69. Din əxlaqını bilən bir insanın bunu bir başqasına da izah etməsi lazımdırmı? Sadəcə özünün yaşaması kafidirmi?

Din əxlaqını öyrənən hər insan bunu başqalarına da izah etməklə məsuldur. Allah "içərinizdən xeyirə çağıran, yaxşı işlər görməyi əmr edən və pislikdən çəkindirən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır." (Ali İmran surəsi, 104) ayəsiylə möminlərə bu məsuliyyətlərini bildirmişdir. Bu səbəblə, mömin həyatının sonuna qədər Quran əxlaqını bir tərəfdən özü yaşayıb və ibadətlərini yerinə yetirərkən, bir tərəfdən də başqalarının eyni şəkildə din əxlaqını yaşaması üçün səy göstərməklə məsuldur.

Quranda din əxlaqının başqalarına da təbliğ edilməsinin möminlərin əhəmiyyətli bir xüsusiyyəti olduğuna belə diqqət çəkilmişdir:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 71)**

## 70. Çevrədən ya da insanlardan çəkinərək yaxşılığı tövsiyə etməmək və pislikdən çəkindirməmək doğru olarmı?

Allah insanlara bir-birlərinə yaxşılığı tövsiyə edib, səhv rəftarlardan da çəkindirmələrini əmr etmişdir. Mömin, qarşı tərəfin Allahın bəyənməyəcəyi bir rəftar içərisində olduğunu gördüyü zaman, Allahın bu əmri istiqamətində bu adamı doğru olana çağırar. Allahın Quranda bildirdiyi mövzuları insanlara öyüd-nəsihət və onları doğru olana dəvət etmə mövzusunda heç bir zaman tərəddüdə düşməz. Çünki Allah "**Bu, insanları qorxutmaq və möminlərə öyüd-nəsihət vermək üçün sənə nazil edilən Kitabdır. Ona görə qəlbin heç narahat olmasın.** (Əraf surəsi, 2) ayəsiylə möminlərə Quran hökmlərini başqalarına xatırlatma mövzusunda bitərəf davranmamalarını bildirmişdir.

## 71. Allahın Əfuv və Qaffar adının təcəllilərini necə görürük?

Allahın Əfuv adı "Əfvi çox olan", Qaffar adı "Mərhəməti, bağışlaması çox olan" mənasındadır. İnsan, səhv edən, unudan və yanılan bir varlıqdır. Həyatı boyunca minlərlə dəfə səhv edər, minlərlə dəfə də bu etdiklərindən ötrü peşmanlıq duyar. Ancaq tövbə edərsə, hər səfərində də Allahı mərhəmətli, əfvedici və bağışlayıcı olaraq görər. Çünki Allah qullarına mərhəmət edən, onları əsirgəyən və bağışlayandır. Allah, **"Kim pis bir iş görərsə və ya öz-özünə zülm edərsə, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın Bağışlayan, Rəhmli olduğunu görər."** (Nisa surəsi, 110) ayəsiylə insanlara bu həqiqəti bildirmişdir. Bir başqa ayədə isə Allahın şirk xaricindəki bütün günahları bağışlaya biləcəyi bildirilmişdir:

**Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur. (Nisa surəsi, 48)**

## 72. Allahın Qaniy (Zəngin) adının təcəllilərini necə görürük?

**Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Tərifəlayiqdir (Fatir surəsi, 15)**

Yuxarıdakı ayədə bildirildiyi kimi, Allah Qaniydir, yəni "çox zəngin və hər şeydən müstağni olan"dır. İnsanlar da daxil olmaq üzrə bütün varlıqlar hər an Allahın varlığına, özlərinə bağışlayacağı nemətlərə, Allahın əsirgəməsinə və bağışlamasına möhtacdırlar. Onun istəyi və onlara verdiyi nemətlərlə həyatlarını davam etdirirlər. Allah isə pakdır, müqəddəsdir və hər şeyin tək sahibidir. Quranda Allahın bu adı bir çox ayə ilə tanıdılmışdır. Bunlardan bəziləri belədir:

**- "Göylərdə və yerdə Allahı aciz qoyan heç bir şey yoxdur" (Fatir surəsi, 44).**

**- mülkündə heç bir şəriki olmayan, aciz qalmamaqdan ötrü Özünə kömək edəcək heç bir dosta möhtacı olmayandır. (İsra surəsi, 111).**

**- Allah, göyləri və yeri yaradan, onları yaratmaqla yorulmayandır. (Əhqaf surəsi, 33)**

**- Allah, "doğmamış və doğulmamış" dır. (İxlas surəsi, 3)**

**- "Göylərdə, yerdə, onların arasında və torpağın altında olanların hamısı Onundur" (Taha surəsi, 6)**

**- "Şübhəsiz ki, Biz, həqiqətən Biz yaşadar və öldürən və varis olanlar Bizik" (Hicr surəsi, 23)**

## 73. Allahın Mühəvvin (Asanlaşdıran) adının təcəllilərini necə görürük?

Mühəvvin adı Allahın "çətinlikləri yüngülləşdirən" sifətini ifadə edər. Quranın **"... Allah sizə asanlıq diləyər, çətinlik diləməz ..."** (Bəqərə surəsi, 185) ayəsiylə Allahın Mühəvvin sifətinə diqqət çəkilmişdir. Allah Özünə sığınan qullarının işlərini asanlaşdıracağını, onlara kömək edəcəyini, ürəklərinə hüzur və güvən hissi verərək onları dəstəkləyəcəyini və addımlarını möhkəmləndirərək qətiyyətlərini artıracağını bildirmişdir. Onların qaldıra bilməyəcəyi bir yük yükləməyəcəyini bildirmiş, üstəlik qarşılaşdıqları çətinliklərə qarşı, Allah üçün gözəl bir səbir ilə səbir etdikləri zaman da onları Öz tərəfindən köməyiylə dəstəkləyəcəyini müjdələmişdir. Həmçinin Allah, **"Demək ki, həqiqətən çətinliklə birlikdə asanlıq vardır"** (İnşirah surəsi, 5) ayəsiylə də insanlara çətinliklərin ardından mütləq asanlıq gətirəcəyini bildirmişdir.

## 74. Allahın Şafi adının təcəllilərini necə görürük?

Allahın Şafi ismi "şəfa verən" mənasındadır. Xəstəliyi yaradan Allah olduğu kimi bu xəstəlikləri sovuşduran və insanlara şəfa verə biləcək tək güc də yenə Allahdır. Əlbəttə ki, Allah hər bir xəstəlik üçün bir çox müalicə üsulu və dərman da yaratmışdır, ancaq bütün bunlar bir insana yenə ancaq Allahın diləməsiylə şəfa verə bilər. Allah dilədiyi müddətcə heç bir həkim, heç bir müalicə üsulu və ya heç bir dərman tək başına bir insanı sağaltmaq üçün yetərli olmaz. Hz. İbrahimin Quran ayəsiylə bildirilən "Xəstələndiyim zaman mənə şəfa verən Odur." (Şuəra surəsi, 80) sözləri də bu həqiqəti dilə gətirmişdir.

## 75. Allahın Münzir (Aqibətinin nə olacağını deyərək qorxudan) adının təcəllilərini necə görürük?

Allahın Münzir adının mənası "xəbərdar edib qorxudan" dır. Allah endirdiyi haqq kitablar ilə insanlara doğrunu və yanlışı bildirir və onları axirətdə qarşılarına çıxacaq olan cəhənnəm əzabına qarşı xəbərdar edər. Bir ayədə Quranın endirilməsindəki bu məqsəd belə açıqlanmışdır:

"**Bu Quran insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar.**” (İbrahim surəsi, 52) Bununla yanaşı, Allahın tarix boyunca gəlmiş keçmiş hər birliyə elçilərini göndərməsi də yenə eyni məqsədli olub. Quranda peyğəmbərlərin insanlara doğru yolu göstərdiyi, onları Allahın əzabıyla xəbərdar edib və cənnət ilə müjdələdiyi belə bildirilmişdir:

**Biz müjdə verən və qorxudan elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah Qüdrətlidir, Müdrikdir (Nisa surəsi, 165)**

## 76. Allahın Quranda sevdiyini bildirdiyi xüsusiyyətlər nələrdir?

Bir ayədə hz. Şüeyb **"Rəbbinizdən bağışlanma diləyin, sonra Ona tövbə edin. Həqiqətən, Rəbbim rəhmlidir, sevəndir."** (Hud surəsi, 90) sözləriylə qövmünə Allahın sevgisini xatırlatdığı bildirilir. İman edən, Allahdan qorxub çəkinən, Quranın hökmlərini dəqiqliklə yerinə yetirən və ciddi bir səy ilə axirət üçün çalışan hər insan Allahın sevgisini, razılığını və məmnuniyyətini qazanmağı ümid edə bilər. Allahın bu sevgisini kimlərə yönəldəcəyini bildirdiyi ayələrdən bəziləri isə belədir:

Allah yaxşılıq edənləri sevər

**"... Yaxşılıq edin. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevər." (Bəqərə surəsi, 195)**

Allah, ədalətlə hökm edənləri sevər

**"... (Hər mövzuda) ədalətli davranın. Şübhəsiz ki, Allah ədalətli olanları sevər." (Hucurat surəsi, 9)**

Allah Özündən qorxanları sevər

**"Xeyr, kim əhdinə vəfa edər və çəkinsə şübhəsiz ki, Allah müttəqiləri sevər." (Ali İmran surəsi, 76)**

Allah səbir edənləri sevər

**"... Allah səbir edənləri sevər." (Ali İmran surəsi, 146)**

Allah təvəkkül edənləri sevər

**"... Həqiqətən, Allah təvəkkül edənləri sevər." (Ali İmran surəsi, 159)**

Allah təmizlənənləri sevər

**"... Allah təmizlənənləri sevər." (Tövbə surəsi, 108)**

Allah müttəqiləri sevər

**"... Həqiqətən, Allah müttəqiləri sevər." (Tövbə surəsi, 7)**

Allah Öz yolunda səf-səf duraraq mübarizə aparanları sevər

**"Şübhəsiz ki, Allah möhkəm bir divar kimi səf-səf düzülüb Onun yolunda vuruşanları sevir. " (Saff surəsi, 4)**

## 77. Allahın Quranda sevmədiyini bildirdiyi xüsusiyyətlər nələrdir?

Bu mövzuda Quranda bildirilən ayələrdən bəziləri belədir:

Allah günahkar kafirlərin heç birini sevməz

**Allah sələmi puç edir, sədəqələri isə artırır. Allah kafirləri və günahkarları sevməz (Bəqərə surəsi, 276)**

Allah zalımları sevməz

**"İman gətirib saleh əməllər işlədənlərin mükafatlarını tam verəcəkdir. Allah zalımları sevməz." (Ali İmran surəsi, 57)**

**Məzəmmət olunmağa ancaq insanlara zülm edənlər və yer üzündə haqsız yerə azğınlıq edənlər layiqdirlər. Məhz onlar üçün ağrılı-acılı əzab vardır (Şura surəsi, 40)**

Allah təkəbbürlənib lovğalıq edənləri sevməz

**Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın. Ana-ataya, yaxın qohumlarınıza, yetimlərə, yoxsullara, yaxın qonşuya, uzaq qonşuya, yol yoldaşına, müsafirə və sağ əllərinizin malik olduqlarına gözəlliklə davranın. Çünki, Allah özünü öyənləri və lovğalıq edənləri sevmir. (Nisa surəsi, 36)**

**İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir. (Loğman surəsi, 18)**

Allah xəyanət edən günahkarları sevməz

**Öz nəfslərinə xəyanət edənlərdən ötrü mübahisə etmə. Heç şübhəsiz ki, Allah xəyanət edən günahkarları sevməz. (Nisa surəsi, 107)**

Allah həddi aşanları sevməz

**... Əlbəttə, Allah həddi aşanları sevməz. (Bəqərə surəsi, 190)**

Allah fitnə-fəsad törədənləri sevməz

**... Yer üzündə fitnə-fəsad törətməyə çalışarlar. Allah isə fitnə-fəsad törədənləri sevməz. (Maidə surəsi, 64)**

**O, dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir (Bəqərə surəsi, 205)**

Allah israf edənləri sevməz

**... Bar verdiyi zaman onların meyvəsindən yeyin, yığım günü haqqını verin; israf etməyin. Çünki O, israf edənləri sevməz. (Ənam surəsi, 141)**

**Ey Adəm oğulları, hər məscid yanında zinətlərinizi geyinin. Yeyin, üçün və israf etməyin. Çünki O, israf edənləri sevməz. (Əraf surəsi, 31)**

Allah həddi aşanları sevməz!

**Rəbbinizə yalvara yalvara və için-için dua edin. Şübhəsiz ki, O, həddi aşanları sevməz. (Əraf surəsi, 55)**

Allah xəyanət edənləri sevməz

**... Həqiqətən, Allah xəyanət edənləri sevməz. (Ənfal surəsi, 58)**

Allah təkəbbürlüləri sevməz

**Şübhəsiz ki, Allah onların gizli saxladıqlarını və aşkara çıxartdıqlarını bilir; həqiqətən O, təkəbbür edənləri sevməz!. (Nəhl surəsi, 23)**

Allah xain, nankor olan kimsəni sevməz

**Şübhəsiz ki, Allah iman gətirənləri mühafizə edir. Həqiqətən, Allah heç bir nankor xaini sevmir. (Həcc surəsi, 38)**

Allah öyünənləri sevməz

**... Qövmü ona demişdi ki: "Öyünmə, çünki Allah öyünənləri sevmir." (Qəsas surəsi, 76)**

## 78. Təkamülçülərin, bir canlının doğulan kimi öz növünün xüsusiyyətlərinə aid məlumatlara necə sahib olduğu, sərgilədiyi şüurlu,

**planlı və ağıllı davranışların necə ortaya çıxdığı suallarına verdikləri cavablar nələrdir?**

Buna bənzər suallara təkamülçülər açıq və qəti cavablar verə bilməzlər. Ancaq, bu tip vəziyyətlərdə təkamülçülərin müraciət etdikləri bir izah vardır. Heyvanların instinktləri ilə bu davranışları göstərdiklərini iddia edərlər. İnstinkt sözü təkamülçü elm adamları tərəfindən, heyvanların doğuşdan sahib olduqları bəzi davranışları müəyyən etmək üçün istifadə edilər. Ancaq bu instinktin necə əldə edildiyi, ilk olaraq necə ortaya çıxdığı və nəsildən-nəsilə necə ötürüldüyü sualları hər zaman cavabsızdır. Təkamülçü genetik Gordon R. Taylor, "The Great Evolution Mystery" adlı kitabında instiklərlə əlaqədar bu çıxılmaz vəziyyəti belə ifadə edir:

İnstikli bir davranış ilk olaraq necə ortaya çıxır və bir növdə irsi olaraq necə yerləşir deyə soruşsaq, bu suala heç bir cavab ala bilmərik. (Gordon R. Taylor, The Great Evolution Mystery, Harper & Row Publishers 1983, səh. 222)

## 79. Təkamülçülər instinktə necə tərif verərlər?

Təkamülçülər instinkti, canlıların genlərində proqramlanmış olan davranışlar olaraq təyin edərlər. Məsələn, təkamülçülərə görə köç edən canlılar, ilk dəfə çıxdıqları köç səfərində istiqamətlərini instinktlərinə uyaraq taparlar. Bir quşun, ya da bir ilan balığının minlərlə kilometrlik səfərini başa çatdıra bilməsini təmin edən instinktləridir. Yəni köçəri quşların, ilan balıqlarının, tısbağaların hara gedəcəkləri genlərində proqramlaşdırılmışdır. Bu vəziyyətdə ağıla bu proqramı quşların genlərinə kimin yerləşdirdiyi sualı gələcəkdir. Çünki hər proqramın bir proqramlayıcısı vardır. Elə isə canlılardakı instinktlərin proqramlayıcısı kimdir? Bu suallara təkamülçülərin verdikləri cavab sadəcə insanları aldatmaqdan ibarətdir. Təkamülçülərə görə yer üzündəki bütün canlılar xüsusiyyətlərini "ana təbiət", ya da "təbiət" adını verdikləri anlayışlar sayəsində qazanmışlar. Bu anlayışların nələrdən meydana gəldiyini bir düşünək; daş, torpaq, ot, ağaclar, çiçəklər ... Bir ağacın bir arıya necə pətək düzəldəcəyini, pətəkləri meydana gətirdiyi altıbucaqlılardan neçə dərəcəlik meyilliliklərinin olacağını, ya da bir quşa yuva düzəltməyi öyrətməsi mümkün deyil. Təbiətdə olan heç bir şeyin başqa bir canlıya ağıl və şüur tələb edən hərəkətlər etdirməsi mümkün deyil. Belə bir iddia ağıl və elmdən kənar bir iddia olacaq. Canlılara bütün bunları etdirən, sahib olduqları xüsusiyyətləri onlara verən bir ağıl sahibi olduğu çox açıq bir həqiqətdir. Bu sərhədsiz ağılın sahibi də heç şübhəsiz ki, bütün aləmlərin Rəbbi olan Allahdır.

Təkamülçülərin "instinkt" olaraq adlandırdığı və ya "proqramlaşdırma" olaraq xarakterizə etdikləri bütün davranışlar Allahın ilhamı sayəsində reallaşır.

## 80. Təbiətdə bir çox nümunəsini gördüyümüz fədakarlıqlara, canlılar arasındakı yardımlaşmalara və şəfqət dolu davranışlara təkamülçülər necə şərh gətirirlər?

Təkamülçülər bu mövzulara əsaslı şərhlər gətirə bilmirlər. Bu mövzunu bir neçə nümunə üzərində misallarla izah edək: Erkək buynuzlu quş son dərəcə təhlükəsiz yuva düzəldər və dişi quşu içinə yerləşdirər. Daha sonra balalar yumurtadan çıxıb böyüyənə qədər dişisinə və balalarına daima yemək daşıyar, onlara baxar. Baxımlarını heç axsatmaz. Bir pinqvin dondurucu qış ayları ərzində yumurtalarının başından heç ayrılmaz, heç qidalanmadan kürt yatar. Bir çox balıq növü yumurtaları və sürfələri üçün çox diqqətli yuvalar hazırlayır. Məsələn, erkək tikanlı

balıqlar su bitkilərindən hissələr toplayırlar, böyrəklərindən ifraz edilən yapışqan bir mayeni fısqırdıb, bitki hissələrini bir-birinə yapışdıraraq bir yuva düzəldərlər. Yuvada düzəltdikləri tunelə dişilərin yumurtlamasını təmin edərək, yumurtalara baxmağı öz üzərlərinə götürərlər. Yuvanı təmir edər, yumurtaları oksigenlə təmin etmək üçün suyu dalğalandırar, keşik çəkər, onları qoruyar. Bütün bu kimi vəzifələr kişi balığa aiddir.

Təbiətdə bunlara bənzər bir çox nümunə vardır. Bu davranışların ortaya çıxmasının təkamül mexanizmləri ilə açıqlanması isə qeyri-mümkündür. Bu səbəblə, təkamülçülər canlılardakı bu xüsusiyyətlərin necə ortaya çıxdığı sualını cavabsız buraxarlar. Təkamülçü professorlardan Dr. Camal Yıldırım, bir ananın balasına olan sevgisi kimi davranışların təkamül mexanizmləri ilə açıqlana bilməyəcəyini belə ifadə edir:

Ananın bala sevgisini, heç bir ruhi maddə ehtiva etməyən "kor" bir mexanizm olaraq (təbii seleksiya) şərhə etmə imkanı vardırmı? Bioloqların (bu arada Darvinçilərin) bu cür suallara qane edici cavab verdiklərini söyləmək çətindir, şübhəsiz. (Cemal Yıldırım, Evrim Kuramı ve Bağnazlık, səh. 185)

## 81. Canlılardakı fədakarlıq və buna bənzər davranışların təkamül nəzəriyyəsi üçün əhəmiyyətli və həll edilə bilməyən bir problem olmalarının əsil səbəbi nədir?

Canlılardakı fədakarlıq və əməkdaşlığa əsaslanan davranışlar təkamül nəzəriyyəsinin etibarsızlığını bütün açıqlığıyla ortaya qoyar. Bunun əsil səbəbi nəzəriyyənin qurucusu olan Darvinin iddialarına əsaslandırdığı mexanizmdir. Təkamül nəzəriyyəsinin iddialarından biri olan təbii seleksiya mexanizminə görə, canlılardan mühitə ən yaxşı uyğunlaşan həyatda qalar, gücsüz olanlar və ətraf şərtlərə uyğunlaşa bilməyənlər yox olar. Bu da canlılar arasında yardımlaşma deyil, rəqabət olmasını tələb edir. Halbuki, təbiətə baxdığımızda təkamülçülərin iddia etdikləri kimi yalnız güclülərin yaşadığı və var gücü ilə həyat mübarizəsinin davam etdiyi bir mühit olmadığını görərik.

Bütün canlılar yaşamaq üçün ovlanarlar, özlərini qorumaq üçün vuruşarlar. Amma bunlarla yanaşı, təbiətdə balalarını qorumaq üçün fədakarlıq edən, sürüsünün təhlükəsizliyi üçün öz həyatını təhlükəyə atan bir çox canlı vardır. Fərqli növlər arasında bir-birlərinin mənfəətini qoruma da tez-tez qarşılaşılan davranışlardandır.

Təkamül nəzəriyyəsi təbiətin yalnız bir döyüş yeri olduğunu iddia etdiyi üçün canlılardakı fədakar davranışlara şərh verə bilməz. Məsələn, təkamülçülər sürüdəki nəzarətçi quşun düşmən yaxınlaşdığında qışqıraraq nə üçün özünü fəda etdiyini, ya da başqa bir quş növünün düşməni balalarından uzaqlaşdırmaq üçün yaralı təqlidi edərək diqqəti öz üzərinə çəkməsini açıqlaya bilməzlər. Məhz bu vəziyyət nəzəriyyənin əsassızlığını ortaya qoyarkən, bir tərəfdən də bu canlıları Allahın yaratdığını sübut edən bir dəlilidir.

## 82. Təkamül nəzəriyyəsinin "təbii seleksiya" mexanizmi nə üçün keçərsizdir?

Təbii seleksiya, "bir canlı üçün faydalı olan bir dəyişikliyin (bu dəyişmə quruluşca ola bilər və ya davranışlarla əlaqədar ola bilər) digərlərinin arasından seçilərək o canlıda qalıcı hala gəlməsi və bu şəkildə bir sonrakı nəsilə ötürülməsi" dir. Bu iddiada diqqət edilməli çox

əhəmiyyətli nöqtələr vardır. Bunlardan birincisi, bu ifadənin təbiəti, faydalı və zərərli davranışları ayırd edə bilən, şüurlu və qərar verə bilən bir güc olaraq göstərməyə çalışmasıdır.

Əvvəlcə, təbiətdə belə bir qərarı verə biləcək güc yoxdur, təbiətdəki hər hansı bir başqa canlı da belə bir qabiliyyətə sahib deyil. Belə bir seçimi yalnız o canlıları yaradan edə bilər ki, bütün canlılar Allahın nəzarəti altında hərəkət edərlər.

Təbii seleksiya mexanizminə görə, qazanılan davranışların irsiyyət yoluyla sonrakı nəsillərə köçürülməsi lazımdır. Burada da gözdən qaçırılmamalı olan bir nöqtə vardır. Canlılar təcrübə yolu ilə bəzi şeyləri öyrənsə də bunu daha sonrakı nəsillərə köçürmələri qeyri-mümkündür. Bu mövzudakı maraqlı nümunələrdən biri, işçi qarışqalardır. Qarışqa kaloniyalarındakı bütün məsuliyyət işçi qarışqalara aiddir. Bu qarışqaların xüsusiyyətlərindən biri sonsuz olmalarıdır. Yəni bu canlıların sahib olduqları qabiliyyətləri daha sonrakı nəsillərə irsiyyət yoluyla köçürmələri qeyri-mümkündür. Qısası, təbii seleksiya mexanizmi ilə canlıların gedərək inkişaf edən xüsusiyyətlərə sahib olmaları və bunları özlərindən sonrakı nəsillərə köçürmələri mümkün deyil.

Üstəlik, təbii seleksiya yeni bir canlı növü meydana gətirmə xüsusiyyətinə də sahib deyil. Yəni bir aslandan qaçan ceyran sürüsü içərisində təbii olaraq ən sürətli qaçan ceyranlar qaçıb xilas olacaq. Amma bu xilas olan ceyranların bir başqa növə məsələn, marala çevrilməsini təmin etməyəcək. Bu səbəblə, təkamül nəzəriyyəsinin iki təməl mexanizmindən biri olaraq təqdim edilən təbii seleksiyanın, canlılığın meydana gəlməsi və canlı növlərinin ortaya çıxışı mövzusunda heç bir töhfəsi yoxdur.

## 83. Hər canlı doğulan kimi öz növünə xas davranışlar göstərməyə başlayır. Bu davranışların təsadüflərlə açıqlanması mümkündürmü?

Əlbəttə ki, belə bir şey mümkün deyil. Bunu görmək üçün tək bir nümunə belə kafi olacaq. Yeni doğulmuş tut ipəkqurdu tırtılını müzakirə edək. Dünyada bir dəfəyə ən çox yumurta yumurtlayan canlılarından biri də tut ipəkqurdudur. Bir dəfədə 450-500 yumurta qoyan tut ipəkqurdu yumurtalarını qorumaq və ətrafa dağılmalarının qarşısını almaq üçün, onları ifraz etdikləri çox xüsusi bir iplikle bir-birlərinə bağlayarlar. Yumurtadan çıxan tırtıllar, ilk olaraq özlərinə uyğun bir budaq tapar və eyni ipliklə özlərini bu budağa bağlayarlar. Bunun dərhal ardından da bədənlərindən ifraz etdikləri ayrı bir ipliklə özlərinə barama hörməyə başlayırlar. Tırtıl bu əməliyyat əsnasında orta hesabla 900 ilə 1500 m. uzunluğunda iplik ifraz edər. Yer üzündə hər gün dünyaya gələn saysız tırtıl eyni şəkildə hərəkət edər. Belə çətin və kompleks əməliyyatları bir tut ipəkqurdu tırtılının təsadüfən öyrəndiyini və daha sonra bunları özündən sonrakı nəsillərə öyrətdiyini iddia etmək isə əlbəttə ki, son dərəcə məntiqsizdir. Allah yaratdığı hər canlıya fərqli xüsusiyyətlər verir. Bu xüsusiyyətlər hər yeni nəsildə eynidir, heç dəyişməz, inkişaf etməz. Tırtıl hər zaman tırtıldır və hər zaman eyni baramanı hörər. Bu, Allahın sənətidir. Allah hər şeyə qadirdir.

## 84. Canlılar fədakarlığı yalnız öz balalarına qarşı göstərməzlər. Eyni növün digər fərdlərinin balalarının baxımıyla da eyni şəkildə maraqlanarlar. Bu da təkamülçülərə görə ziddiyyət deyilmi?

Canlıların özlərinə aid olmayan balalara baxmaları təkamülçülərin "təbiətdəki mübarizə" iddialarını tamamilə etibarsız edən bir dəlildir. Təkamülçülərin bir iddiası, heyvanların genlərini

bir sonrakı nəsilə ötürülməsi üçün balalarına fədakarcasına davranışlar göstərdikləridir. Bu səbəblə, canlıların öz balaları xaricində, eyni növün digər fərdlərinə kömək etmələri təkamül nəzəriyyəsinin açıqlamaqda ən çətinlik çəkdiyi mövzulardan biridir. Bunu nümunələrlə də görə bilərik. Müşk öküzlərində, sürünün hər hansı bir hücuma məruz qalması vəziyyətində yetkin öküzlər yan-yana dayanaraq bir dairə təşkil edir və sürüdəki bütün balaları ortalarına alırlar. Beləliklə, balalar qəti şəkildə qorunmuş olarlar. Eyni şəkildə delfinlər də sürü halında gəzərlər və bir-birlərini təhlükələrə qarşı qoruyarlar. Bir delfinin doğum zamanı yanında mütləq ana delfinə köməkçi olan başqa delfinlər da olar. Afrikalı ov itləri də sürü halında yaşayan canlılardır. Erkəklər və dişilər balaların baxımı mövzusunda iş bölgüsü edərlər. Ovu öldürdükdən sonra sürüdəki yetkinlər balaların ətrafında dairə təşkil edər və ilk olaraq balaların qidalanmasına icazə verərlər.

Eyni şəkildə arı, qarışqa kimi canlıların koloniya içindəki fədakarcasına davranışları da Darvinin "güclü olan yaşayar, zəif olan isə əzilərək yox olar" ifadəsini etibarsız edir.

## 85. Təbiətdəki bir çox canlı özündən gözlənilməyəcək işləri böyük bir müvəffəqiyyətlə həyata keçirir. Bəzən bədənlərində bir kimya fabriki varmış kimi hərəkət edərlər, bəzən də ən çətin şərtlərə dayanacaq çox xüsusi mexanizmlərini istifadə edərlər. Təkamülçülər canlılardakı bu kimi ağıl nümunələrinə necə bir izah gətirirlər?

Təkamülçülər canlılardakı kompleks mexanizmlər qarşısında susqun qalır. Nəzəriyyəni etibarsız edən yaradılış nümunələrindən biri, bombardman böcəyidir. Bombardman böcəyi düşmənlərinə qarşı, arxasındakı bir dəlikdən qaynar istilikdə xüsusi bir kimyəvi maye fışqırdaraq özünü müdafiə edir. Bu kimyəvi silah necə işləyir?

Bu sualla yola çıxan elm adamları son dərəcə təəccüblü kəşflər əldə etmişlər. Bombardman böcəyi, gizli ifrazat bölmələrində iki kimyəvi maddənin qatılaşdırılmış qarışığını hazırlayar: Hidrogen peroksid və hidro-kinon. Bunların qarışığı, toplama kisəciyi deyilən saxlama otağında birləşər. Bu toplama kisəsi, partlayış otaqcığı deyilən ikinci bölməyə bağlanar. Bu iki bölmə, insan ürəyindəki qapaqcıqlı əzələ sistemi kimi bir sistemlə bir-birindən ayrılmışdır. Böcək təhdid edildiyini anladığında, toplama kisəsindəki əzələlərini yığar. Eyni anda bu otağı, partlayış otağından ayıran əlaqə əzələlərini sərbəst buraxar və aradakı qapaq açılar. Bunun sayəsində, ifraz olunan kimyəvi qarışıq partlayış odacığına girər və partlayışı reallaşdıracaq katalizator fermentləri ilə qarşılaşar. Bu mərhələdə dərhal partlayış odacığının qapağı bağlanar. Hidrogen peroksid, su və oksigenə ayrılar. Oksigen, hidrokinon ilə reaksiyaya girərək daha çox su əmələ gətirər və "kinon" deyilən qıcıqlandırıcı kimyəvi maddə istehsal olunar. Bu reaksiya əsnasında olduqca yüksək bir istilik ortaya çıxar. Kimyəvi maddə bu mərhələdə qaynama dərəcəsinə çatar və bu qarışıq böcəyin bədəninin arxa qismindən boru şəklindəki xüsusi bir kanalla çölə püskürdülər. Və beləcə böcək, düşmənini zəhərli kimyəvi maddə olan kinon ilə məhv edər.

Böcəyin bədənində reallaşan bütün bu zəncirləmə reaksiyası göz açıb bağlayana qədər reallaşar. Bu sistemin heç səhv etmədən işləməsi çox vacibdir. Çünki sistemdəki hər hansı bir axsaqlıq partlayışın reallaşmaması və böcəyin ya düşməni tərəfindən öldürülməsi, ya da partlayışın böcəyin bədəninin içində reallaşması mənasına gələcəkdi. Qısacası, bombardman böcəyinin müdafiə sisteminin tam olaraq işləməsi üçün bütün hissələri eyni anda və əksiksiz bir şəkildə var olmalıdır. Bu da, böcəyin yaradılmış olması deməkdir.

## 86. Təbiətdəki canlılar öz-özlərini müalicə etməyi necə öyrənmiş ola bilərlər? Bu təkamülçülərin iddia etdikləri kimi təsadüfən təkmilləşmiş xüsusiyyət ola bilərmi?

Belə bir şey, əlbəttə, mümkün deyil. Bunu bir nümunə ilə baxaq. Bezoar keçisi, nə zaman bir ilan tərəfindən çalınarsa, yaşadığı yerdə yetişən südləyənkimilər bitkisi növlərindən birini yeyərək qanına qarışan ilan zəhərini südləyənkimilər mayesindəki "öforbon maddəsi" sayəsində təsirsiz hala gətirər. Gündəlik otladıqlarında isə südləyənkimilərə ağzını belə vurmaz. Bu bezoar keçilərinin südləyənkimilərin kimyəvi quruluşunu və bu otun ilan zəhərinə təsir etdiyini bilmələri deməkdir. Bu məlumatı bezoar keçiləri haradan əldə etmişlər?

Keçilərin, onları ilan dişlədiyində tapdıqları bütün otları yeyərək, yəni sınaq-yanılma metodunu istifadə edərək hansı otun zəhərlənmələrinə maneə olacağını tapmaları əlbəttə ki, mümkün deyil. Elə isə bu keçilər ilan zəhərinə qarşı hansı otun təsirli olacağını, ilan dişlədiyində necə müalicə olacaqlarını haradan bilirlər? Bu məlumatları onlara öyrədən kimdir? Bu sualların tək bir cavabı vardır. Bezoar keçiləri, dünyadakı hər canlı kimi Allahın ilhamı ilə hərəkət edirlər. Allah, onlara necə davranmaları lazım olduğunu öyrədib.

## 87. Təkamülçülər ibtidai bakteriya hüceyrəsinin şərtlərin məcbur etməsi nəticəsində fotosintez etməyə başladığını və təkamül keçirərək bitkiləri meydana gətirdiyini iddia edərlər. Bakteriyaların belə kompleks bir əməliyyatı öz-özlərinə başlatmış olmaları mümkündürmü?

Təkamülçülər, ilk bakteriyaların bəslənmə ehtiyacı səbəbindən fotosintez etməyə başladıqlarını iddia edərlər, amma belə bir şey mümkün deyil. Çünki canlıların aclığa dayanma müddətləri müxtəlif olsa da, qida tapa bilməyən hər canlının qaçınılmaz sonu ölümdür. Bu iddia istiqamətində cavablandırılmalı olan suallar var. Ac qalan bir canlı milyonlarla il davam edən bir zaman müddətində ölmədən necə gözləmişdir? Üstəlik də bu aclıq nəticəsində bakteriyalar çox daha inkişaf etmiş bir canlıya çevrilərək, fotosintez kimi bir çox mərhələsi indiki zamanda həll edilə bilməmiş, süni olaraq belə təqlid edilə bilməyən bir əməliyyatı etməyə başlamışlar.

Bitkilər bakteriyalardan təkamülləşmiş ola bilməzlər. Çünki bakteriya hüceyrəsi ilə bitki hüceyrəsi quruluş olaraq bir-birindən çox fərqlidir. Yalnız DNT-lərinin quruluşu araşdırıldığında belə çox fərqli olduqları asanlıqla görüləcək. Məsələn, bitki hüceyrəsindəki DNT molekulu cüt qatlı bir pərdəylə saxlanılır, bakteriya hüceyrəsindəki DNT molekulu isə hüceyrə içində sərbəst dayanır. Bakteriya hüceyrəsindəki DNT molekulunda az sayda zülal vardır. Ancaq bitki hüceyrəsindəki DNT molekulu bir ucdan digər uca qədər zülallara bağlıdır. Bakteriya hüceyrəsindəki DNT molekulu tək bir hüceyrəyə aid məlumat daşıyır, halbuki bitki hüceyrəsindəki DNT bütün bitkiyə aid məlumatları daşıyır.

Bakteriyalarda heç bir orqanoid olmaz, bitki hüceyrələrində isə hər biri çox kompleks quruluşlara sahib bir çox orqanoid var. Bu həqiqəti təkamülçülər də bilir. Məsələn, təkamülçü elm adamı Prof. Əli Dəmirsoy aşağıdakı sözləri ilə bu vəziyyəti açıq şəkildə etiraf edir:

Kompleks hüceyrələr heç bir zaman ibtidai hüceyrələrdən təkamül prosesi içərisində inkişaf edərək meydana gəlməmişdir. (Ali Demirsoy, Kalıtım ve Evrim, s. 79)

**88. Təkamülçülər su yosunlarının quru bitkilərinə çevrildiyini iddia edirlər. Bu iddia nə dərəcədə doğrudur?**

Təkamülçülərin bu iddiaları da digərləri kimi əsassızdır. Təkamülçülərin iddialarına görə su yosunları dənizlərdəki qabarma-çəkilmə nəticəsində dəniz sahillərinə yapışarlar və bir müddət sonra quru bitkilərinə çevrilərək sahillərdən içərilərə doğru irəliləyərlər. Görəsən təkamülçülərin bu xəyali fərziyyələri həqiqətə nə qədər yaxındır?

Su yosunlarının quruya keçmələri vəziyyətində yaşamalarını mümkün etməyən çox sayda amil vardır. Bunlardan ən əhəmiyyətlilərinə qısaca bir nəzər salaq:

1-Quruma təhlükəsi: Suda yaşayan bir bitkinin quruda yaşaya bilməsi üçün əvvəlcə səthinin çox su itkisindən qorunması lazımdır. Əks təqdirdə bitki quruyacaq. Quru bitkiləri, qurumadan qorunmaq üçün xüsusi sistemlərlə təchiz edilmişlər. Bu sistemlərdə çox əhəmiyyətli təfərrüatlar vardır. Belə həssas bir sistemin təsadüfən meydana gəlməsi ehtimal xaricidir, qeyri-mümkündür. Əgər belə bir sistem bitkidə yoxdursa, bitkinin bu sistemin inkişafını gözləyəcək milyonlarla il zamanı da yoxdur. Belə bir vəziyyətdə bitki bir müddət sonra quruyar və ölər. Qaldı ki, bu çox xüsusi sistemlər, milyonlarla və milyardlarla il keçsə də təsadüfən əmələ gəlməyəcək qədər kompleks sistemlərdir.

2-Qidalanma: Su bitkiləri, ehtiyacları olan suyu və mineralları birbaşa olaraq içində olduqları sudan alırlar. Bu səbəbdən, quruya çıxıb yaşamağa çalışan bir su yosununu qidalanma problemi ortaya çıxacaq. Bunu həll edərək həyatını davam etdirməsi isə qeyri-mümkündür.

3-Çoxalma: Su yosununu qurudakı qısa ömrü əsnasında çoxalma üçün hər hansı bir imkanı da ola bilməz. Çünki su yosunları hər cür işlərində olduğu kimi, çoxalma hüceyrələrini dağıtma işində də sudan istifadə edərlər.

4-Oksigenin dağıdıcı təsirindən qorunma: Quruya keçdiyi iddia edilən su yosunu oksigeni o ana qədər suda həll olaraq almışdır. Təkamülçülərin iddiasına görə quruya keçdiyi anda oksigeni daha əvvəl heç qarşılaşmadığı bir şəkildə, yəni havadan birbaşa olaraq almaq məcburiyyətindədir. Bilindiyi kimi, normal şərtlər altında havadakı oksigenin üzvi maddələr üzərində dağıdıcı təsiri vardır. Quruda yaşayan canlılar, bu təsirdən zərər görməmələrini təmin edəcək sistemlərə malikdirlər. Su yosunu bir su bitkisidir, buna görə də oksigenin mənfi təsirlərindən qorunmaq üçün lazımlı olan fermentlərə sahib deyil. Buna görə quruya keçdiyi anda oksigenin zərərli təsirindən xilas olması mümkün deyil. Belə bir sistemin meydana gəlməsini gözləməsi kimi bir vəziyyət də mümkün deyil. Quruya çıxan bir su yosunu zaman keçdikcə mütləq quruyaraq yox olacaq.

Göründüyü kimi, bir su yosunu üçün quruya keçmə və quruda həyatına davam etdirməsi kimi bir ehtimal yoxdur. Quruya çıxdığı ilk anda, quruda yaşayan bir bitki kimi, rahatca yaşaya bilməsi üçün qüsursuz işləyən bir çox mexanizmə sahib olması lazımdır.

Nəticədə ortaya çıxan həqiqət budur: Bir su bitkisinin nə qədər müddət keçirsə keçsin, şərtlər nə olursa olsun bir quru bitkisinə çevrilməsi imkansızdır.

Qısacası, canlıların təsadüflər nəticəsində ortaya çıxdıqlarını qarşıya qoyan təkamül nəzəriyyəsi, həqiqətlərə zidd olan xurafatdan ibarətdir. Çünki bütün canlıları, Allah yaratmışdır.

**... Sən pak və müqəddəssən, bizə öyrətdiklərindən**
**başqa bizim heç bir məlumatımız yoxdur.**
**Həqiqətən, Sən hər şeyi bilən, hökm və hikmət sahibi Sənsən.**
**(Bəqərə surəsi, 32)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz

vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində

yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast

gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz.

Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

### Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən

böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah’ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat

modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

### Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində

düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların

toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən biləsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**